Xalqın qəzeti!

# Xalq qəzeti

№ 135 (30829) 5 iyul 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan əzəmətinin Xankəndi zirvəsi



səhifə ⇨ 8

# Qarabağ Azərbaycanın dünyaya açılan pəncərəsinə çevrilir

## Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü keçirilib

### *Prezident İlham Əliyev Zirvə görüşündə çıxış edib*




**İyulun 4-də Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Prezident İlham Əliyev Zirvə görüşündə çıxış etdi.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycanın xarici siyasəti: sülhsevərlik və humanitarlıq aspekti



səhifə ⇨ 7

## BQXK: şəfqət missiyasının astar üzü




səhifə ⇨ 7

## Ermənipərəst merin maskası yırtıldı



səhifə ⇨ 6

## İƏT Azərbaycan üçün önəmli regional əməkdaşlıq platformasıdır

### Üzv dövlətlər ölkəmizə 22 milyard dollar sərmayə yatırıb



**Prezident İlham Əliyevin müəyyənləşdirdiyi siyasətə uyğun olaraq Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişləndirilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Bu baxımdan ölkəmizdə bir sıra beynəlxalq qurumlarla, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) ilə münasibətlərin dərinləşməsinə xüsusi önəm verilir.**

*(ardı 8-ci səhifədə)*

## Kreml köhnə "buxov"ları yaddan çıxarmalıdır



səhifə ⇨ 6

## Avropa ABŞ-dan Ukraynaya silah ala biləcəkmi?

**Ukrayna silah təminatında qarşılaşdığı çətinliklər fonunda yeni yanaşma sərgiləməyə başlayıb. "Politico" nəşrinin diplomatik mənbələrə istinadən yaydığı məlumata görə, rəsmi Kiyev Vaşinqtondan Avropa ölkələrinin öz müdafiə büdcələri hesabına ABŞ istehsalı olan silahları alaraq Ukraynaya ötürməsinə icazə verilməsini xahiş etməyə hazırlaşır. Məqalədə bildirilir ki, bir neçə Avropa hökuməti artıq bu istiqamətdə planlar hazırlayır. Silahların alınması və Ukraynaya ötürülməsi Avropa ölkələrinin NATO çərçivəsində müdafiəyə ayırdığı xərclərə daxil ediləcək. Lakin prosesin gerçəkləşməsi üçün ABŞ hökumətinin razılığı tələb olunur və bu məsələ hazırda danışıqlar mərhələsindədir.**

*(ardı 11-ci səhifədə)*



## Ermənistan hərbçiləri Kəlbəcərin dinc əhalisinə də divan tutublar

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 4-də davam etdirilib.**



səhifə ⇨ 9

# Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü keçirilib

## *Prezident İlham Əliyev Zirvə görüşündə çıxış edib*











### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli dövlət və hökumət başçıları.
Hörmətli Zirvə görüşünün iştirakçıları.

İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün qədim Azərbaycan torpağı olan Qarabağa, Xankəndiyə xoş gəlmisiniz.

Qazaxıstana ECO-ya uğurlu sədrliyi münasibətilə təşəkkürümü bildirirəm.

Azərbaycan artıq üçüncü dəfədir ki, ECO-nun Zirvə görüşünə ev sahibliyi edir. Əvvəlki iki Zirvə görüşü 2006-cı və 2012-ci illərdə paytaxt Bakıda keçirilmişdir.

Bugünkü Zirvə görüşünün Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var. Ermənistanın işğalından azad edilmiş torpaqlarımızda artıq bir neçə mühüm beynəlxalq tədbir keçirilmişdir. Şuşada 2023-cü ildə ECO-nun Nazirlər Şurasını, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünü və bu ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşünü qeyd etmək istərdim.

Bu gün isə ECO-nun Zirvə görüşü Xankəndidə, yeni inşa edilmiş Konqres Mərkəzində keçirilir.

İşğaldan azad edilmiş bütün Qarabağ və Şərqi Zəngəzurda hazırda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır.

Ermənistan Azərbaycan ərazilərinin təxminən 20 faizini 30 ilə yaxın işğal altında saxlamış, etnik təmizləmə həyata keçirmiş, bir milyondan artıq soydaşımızı öz dədə-baba torpağından didərgin salmışdır.

Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmamışdır. Dəfələrlə Ermənistana və onun arxasında duran dövlətlərə bildirirdik ki, əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz öz ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik. Əfsuslar olsun ki, Ermənistan və onun havadarları bizim bu xəbərdarlığımızı ciddi qəbul etməyiblər. Nəticədə peşman olublar.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ermənistanı döyüş meydanında darmadağın edərək 300-dən çox şəhər və kəndi azad etdi. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktı imzalamağa məcbur oldu.

İşğal dövründə Ermənistan şəhər və kəndlərimizi, mədəni və dini abidələrimizi yer üzündən silmişdir. 67 məsciddən 65-i Ermənistan tərəfindən yerlə-yeksan edilib, qalan ikisi isə ciddi zərər görüb, donuz və inək tövləsi kimi istifadə olunub. Bu, İslam dininə və dünya müsəlmanlarına qarşı hörmətsizlik və təhqir idi.

Qəbiristanlıqlar da vandalizmə məruz qalıb, dağıdılıb, qəbir daşları talanaraq Ermənistana aparılıb.

Dövlət qurumlarından ibarət komissiya öz işinə xarici ekspertləri cəlb edərək, beynəlxalq təcrübədən yararlanmaqla işğal nəticəsində Azərbaycana vurulmuş zərəri təxminən 150 milyard ABŞ dolları məbləğində qiymətləndirmişdir.

Ermənistan torpaqlarımızda bir milyondan çox mina basdırıb. Vətən müharibəsindən




bu günə qədər 400-ə yaxın soydaşımız mina partlaması nəticəsində həlak olub və ya ağır yaralanıb.

İndi Azərbaycan Ermənistanın xarabazara çevirdiyi torpaqlarda yeni şəhərlər və kəndlər inşa edir. "Böyük Qayıdış" Proqramı icra edilir. Bu günə qədər 16 şəhər və kəndə keçmiş məcburi köçkünlərin qayıdışını təmin etmişik. Hazırda azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, çalışır və təhsil alır.

Ermənistandan deportasiya olunmuş Qərbi azərbaycanlıların hüquqlarının təmin olunması da böyük əhəmiyyət kəsb edir. Keçən ay İslam Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş Nazirlər Şurasında Ermənistandan zorla didərgin salınmış azərbaycanlıların qayıdış hüququna dəstək ifadə edən qətnamənin bütün 57 üzv ölkənin yekdil qərarı ilə qəbul olunmasını yüksək qiymətləndiririk.

Bu qətnamə ilə yanaşı, Nazirlər Şurasının yekunlarına dair "İstanbul Bəyannaməsi"ndə indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququ təsdiqlənir və Ermənistanın Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi qınanılır.

Qərbi azərbaycanlıların Ermənistandakı öz dədə-baba torpağına sülh yolu ilə qayıdışının təmin edilməsi sahəsində səylər bundan sonra da davam etdiriləcək.

Xanımlar və cənablar, Azərbaycan ECO-nun işində həmişə fəal iştirak etmişdir. ECO-ya üzv ölkələrlə əlaqələrimiz uğurla inkişaf edir.

Keçən il tarixdə ilk dəfə olaraq ECO məkanında COP29 konfransı keçirilmişdir. Bu konfransda 197 ölkə, 70 dövlət və hökumət başçısı iştirak etmiş, 77 min şəxs qeydiyyatdan keçmişdir.

Konfransda əldə edilmiş əsas nailiyyətlər inkişaf etməkdə olan ölkələrə maliyyə yardımının 100 milyarddan 300 milyard ABŞ dollarına qədər artırılması, İtki və Zərər Fondunun işlək vəziyyətə gətirilməsi və karbon bazarları barədə razılaşmalardan ibarət olmuşdur.

Azərbaycanın təşəbbüsü ilə bu il ilk dəfə ECO Həftəsi keçirilir. Şuşada ECO-nun Biznes-Forumu, Ağdamda Gənclər Forumu, Laçında isə Qadınlar Forumu təşkil edilmişdir. Forumda iştirak etmiş nümayəndələr bu gün burada görülmüş işlərlə bağlı məruzələr təqdim edəcəklər.

ECO-nun Azərbaycanda yerləşəcək Tədqiqat Mərkəzinin və Təmiz Enerji Mərkəzinin fəaliyyətə başlamasının təmin olunması istiqamətində işlər davam edir.

2026-cı ilin Şuşa şəhərinin "ECO-nun Turizm paytaxtı" elan edilməsinə görə təşəkkürümü bildirirəm.

İqtisadi sahədə əməkdaşlığı dərinləşdirmək üçün bu gün müzakirə ediləcək məsələlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycana gəldikdə, bizim ölkəmizdə çox müsbət sərmayə iqlimi vardır. Son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 350 milyard ABŞ dollarına yaxın sərmayə qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir.

Bu gün Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir və müxtəlif qaz boru kəmərləri vasitəsilə 12 ölkəyə təbii qaz ixrac edir. Bu göstəriciyə görə biz dünyada ön sıralardayıq.

Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir və ECO-ya üzv ölkələrin əksəriyyəti bu dəhlizlərdən istifadə edir.

Əziz dostlar, əminəm ki, bugünkü müzakirələrimiz səmərəli olacaq və ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafına öz müsbət töhfəsini verəcək. Sağ olun.

*

**Sonra İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə görüşünün sədri, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev çıxış etdi.**

### Prezident Şavkat Mirziyoyevin çıxışı

– Hörmətli nümayəndə heyətlərinin rəhbərləri.

Nadir tarixi və mədəni irsi təcəssüm etdirən gözəl Xankəndi şəhərində, qədim Qarabağ torpağında sizinlə görüşməkdən olduqca məmnunam. Əsl qardaşlar kimi biz bu bölgənin sülh və inkişaf məkanına çevrilməsindən çox şadıq. Mən ECO Zirvə görüşünü bu torpaqda yüksək səviyyədə təşkil etdiyinə və səmimi qonaqpərvərlik göstərdiyinə görə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevə ən dərin təşəkkürümü bildirmək istəyirəm.

Daşkənddə tarixi görüşümüzdən sonra təşkilatın təsisat imkanlarının gücləndirilməsində və yeni sahələrdə əməkdaşlığın qurulmasında nəzərəçarpan irəliləyiş sizinlə birgə əldə edilmişdir. Fürsətdən istifadə edərək, təşkilatımızda Qazaxıstan Respublikasının səmərəli sədrliyini qeyd etmək istəyirəm.

Biz, həmçinin məmnunuq ki, uzun fasilədən sonra Əfqanıstanın keçid hökuməti Zirvə görüşümüzdə öz nümayəndə heyəti ilə iştirak edir. Əslində, biz qonşu Əfqanıstanı təşkilatımızın ayrılmaz hissəsi, geniş iqtisadi əməkdaşlığın və regional nəqliyyat proseslərinin mühüm üzvü kimi görürük və onu öz tərəfimizdən geniş şəkildə dəstəkləyirik.

Hörmətli görüş iştirakçıları, bu tədbir çətin anlarda baş tutur və dünya ictimaiyyəti mühüm mərhələlərdən keçir. Bu, tam aydındır. Çünki münaqişə və mübahisələrin əksər hissəsi təşkilatımızın ərazisində baş verməkdədir. Son aylarda Cənubi Asiya və Orta Şərqdə baş verən hadisələr hamımızda böyük narahatlıq doğurdu. Beynəlxalq hüquq və qlobal təhlükəsizlik təsisatlarının sarsılması dialoq və əməkdaşlıq imkanlarını daraldır, güc və zorakılığa yol açır. Xüsusən də təşkilatımızın üzvü olan İran İslam Respublikasına qarşı hərbi əməliyyatlar öz növbəsində bütün regionu müharibəyə sürükləmək və böyükmiqyaslı ətraf mühit fəlakətinin baş verməsi təhlükəsini yaratdı. Beləliklə, biz İran ilə İsrail arasında əldə olunmuş atəşkəs razılaşmasını dəstəkləyirik. Bu qərarı regionda gərginliyin azaldılması və sabitliyin bərpası istiqamətində atılan mühüm addım hesab edirik. İnanırıq ki, bu razılaşma diplomatik və konstruktiv danışıqlarla bütün məsələlərin həlli üçün möhkəm əsas yaradacaq. Nəzərə alsaq ki, kütləvi qırğın silahlarının yayılmaması beynəlxalq təhlükəsizliyin ən təxirəsalınmaz məsələlərindən birinə çevrilir, biz bir daha nüvə silahından azad zonaların coğrafiyasını genişləndirmək üçün qlobal ictimaiyyətə çağırış edirik. Qeyd edilməlidir ki, Orta Şərqdə dayanıqlı sülh və sabitlik İsrail-Fələstin münaqişəsinin ədalətli və düzgün həlli olmadan əldə edilə bilməz. Biz beynəlxalq ictimaiyyəti Qəzza zolağında hərbi əməliyyatların dayandırılmasına, aclıq və qeyri-insani şəraitdən əziyyət çəkənlərə humanitar yardımın göstərilməsində bütün maneələrin aradan qaldırılmasına və müstəqil Fələstin dövlətinin BMT-nin qətnamələrinə uyğun qurulmasına öz tərəfimizdən çağırırıq.

Hörmətli görüş iştirakçıları, hər hansı sülh və inkişafın bünövrəsi öncə iqtisadi əməkdaşlığa söykənir. Ona görə təşkilat daxilində tərəfdaşlığımız nəinki təbiidir, o cümlədən böyük strateji əhəmiyyətə malikdir. Görüşün gündəliyinə uyğun olaraq, mən diqqətinizi bir neçə məsələyə cəlb etmək istəyirəm. Əvvəlcə biz təşkilatımızın orta və uzunmüddətli inkişaf prioritetlərini aydın şəkildə müəyyən etməliyik. Bunun üçün "İqtisadi əməkdaşlığın strateji məqsədləri 2035" adlı konsepsiyanı qəbul etmək zəruridir. Ticarət, sərmayə, nəqliyyat, enerji, sənaye, kənd təsərrüfatı, ekologiya, turizm və təhsil kimi ənənəvi sahələrlə yanaşı, biz, həmçinin innovasiya, süni intellekt və rəqəmsal texnologiyalar üzrə əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetirməliyik. Əmtəə və xidmətlərdə ticarətin asanlaşdırılması, texniki və qeyri-tarif maneələrin tədricən aradan qaldırılması və elektron ticarətin inkişafı xüsusilə vacibdir. Qeyd etmək istərdim ki, qarşılıqlı ticarətimizin cari həcmi aşağı olaraq qalır. 2024-cü ildə bu rəqəm 95 milyard dollar olub və ölkələrimizin ümumi ticarət dövriyyəsinin cəmi 10 faizini təşkil edir. Biz həmin sahədə strateji məsələləri müzakirə etmək üçün bu il Daşkənddə ticarət nazirlərimizin toplantısını keçirməyi və ticarətin asanlaşdırılması sazişinin imzalanmasını təklif edirik. Bundan əlavə, kənd təsərrüfatı, ticarət və əmtəənin məhdudiyyətsiz təchizatı üzrə məlumatların sürətli mübadiləsi üçün "yaşıl dəhlizlər" sistemini yaratmaq çox vacibdir. Sərmayə əməkdaşlığımızı yeni səviyyəyə qaldırmaq üçün "ECO invest" uzunmüddətli proqramını qəbul etmək və sərmayə mühitinin daha şəffaf və cəlbedici olması təşəbbüsü ilə çıxış etmişik. Bu proqramın əsas məqsədi özəl investorları, bankları və beynəlxalq maliyyə təsisatlarını regionumuzda perspektivli layihələrə cəlb etməkdən ibarətdir.

Digər prioritet sahə də var. Son geosiyasi hadisələr təchizat zəncirlərinin pozulması risklərini bir daha göstərdi, alternativ nəqliyyat dəhlizlərinin strateji əhəmiyyətini nümayiş etdirdi. Bunu biz həmin hadisələrdə gördük. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin ötən il başlanması mühüm hadisə idi. Gələcəkdə bu dəmir yolu xətti Transəfqan dəhlizi ilə birləşəcək və böyük regionumuzda tranzit şəbəkələrini səmərəli şəkildə bir araya gətirəcək. İnanırıq ki, məhz rəqəmsal nəqliyyat və gömrük ofisinin yaradılması təşəbbüsünün həyata keçirilməsi labüddür. Çünki bunun sayəsində biz nəqliyyat və logistika sektorlarında rəqəmsallaşmanı sistemli şəkildə təşkil edəcəyik və beləliklə, ekspert səviyyəsində danışıqları daha da gücləndirəcəyik.

**(ardı 3-cü səhifədə)**

# Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü keçirilib





**(əvvəli 2-ci səhifədə)**

Mühüm məsələlərə gəldikdə, yeni aviareyslərin açılması, o cümlədən məhz hava nəqliyyatı şirkətləri arasında əməkdaşlığın innovativ şəkildə həyata keçirilməsi, marketinq strategiyalarının gücləndirilməsi turizm və aviasiya sektorlarının inkişafına böyük təkan verəcək. Bu məsələlərin müzakirəsi məqsədilə Səmərqənddə Milli Hava Yolu Şirkətləri Forumunun təşkil olunmasını təklif edirik. Ümumiyyətlə, təşkilatımız daxilində turizm xidmətlərinin daha da genişləndirilməsi ilə bağlı yol xəritəsinin inkişaf etdirilməsinin bizim bu məqsədə xidmət edəcəyinə əminik və hesab edirik ki, bu potensial turizm imkanlarımızı iki dəfə artıracaq.

Mən diqqətinizi digər bir mühüm məsələyə cəlb etmək istəyirəm. Əsas məsələ ondan ibarətdir ki, bizim hökumətlər qlobal iqlim gündəliyində öz səylərini əlaqələndirməli və birləşdirməlidirlər. Biz Bakıda COP29 qlobal iqlim sammitinin uğurla keçirilməsindən sonra əldə edilmiş razılaşmaların və öhdəliklərin tam şəkildə icrasını qəti şəkildə dəstəkləyirik. Biz, eyni zamanda, təşkilatımızın məhz quraq yerlərdə ağacların əkilməsinə, o cümlədən istirahət zonalarının yaradılmasına yönəlmiş "Yaşıl təşəbbüsü"nü dəstəkləyirik.

Hörmətli nümayəndə heyətinin rəhbərləri, biz təşkilatımızın fəaliyyətinin daha da gücləndirilməsində yüksəksəviyyəli komitənin səylərini alqışlayırıq. İnanırıq ki, bu komitə növbəti Zirvə görüşü üçün təkliflərin hazırlanmasında və təşkilatımızda funksional islahatların aparılmasında, onların gücləndirilməsində öz töhfəsini verəcəkdir. Bu islahatlar birmənalı olaraq bizim əməkdaşlığımızı yeni səviyyəyə qaldıracaq, təşkilatımızın beynəlxalq nüfuzunu və təsirini gücləndirəcək, onun işinin müasir tələblərə uyğun qurulmasına səbəb olacaq.

Əminəm ki, bugünkü Zirvə görüşü bizim məqsədlərimizə, planlarımıza nail olmaq işinə təkan verəcək, çoxtərəfli və praktiki əməkdaşlığımızı yeni səviyyəyə qaldıracaq.

Diqqətinizə görə təşəkkür edirəm.

*

Tədbir digər çıxışlarla davam edib.

İran İslam Respublikasının Prezidenti **Məsud Pezeşkian** çıxışında İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında Azad Ticarət Zonasının yaradılmasına diqqət çəkərək, təşkilatın 17-ci Zirvə görüşünə ev sahibliyi etdiyinə görə Azərbaycana minnətdarlığını bildirdi və dedi:

– Zati-aliləri, Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev, İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünə ev sahibliyi etdiyinizə və səxavətli qonaqpərvərliyinizə görə Sizə və hörmətli Azərbaycan xalqına minnətdarlığımı bildirmək istəyirəm.

Qırğız Respublikasının Prezidenti **Sadır Japarov** bərpaolunan enerji mənbələri üzrə və rəqəmsal sahədə əməkdaşlığın, nəqliyyat-logistika əlaqələrinin inkişaf etdirilməsinin vacibliyini vurğuladı və iqlim dəyişikliklərinin iqtisadiyyatın şaxələnməsinə təsirindən danışdı. Prezident İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün Xankəndidə keçirilməsinin əhəmiyyətinə toxunaraq bildirdi:

– Görüşümüzün Azərbaycanın Qarabağ bölgəsində yerləşən, sülh rəmzi olan tarixi Xankəndi şəhərində keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Hörmətli İlham Heydər oğlu, ənənəvi səmimi qonaqpərvərliyinizə və bu tədbiri belə yüksək səviyyədə təşkil etdiyinizə görə Sizə və qardaş Azərbaycan xalqına səmimi-qəlbdən təşəkkürümü bildirirəm.

Pakistan İslam Respublikasının Baş naziri **Məhəmməd Şahbaz Şərif** Zirvə görüşünün yüksək səviyyədə təşkil edildiyini deyərək, təşkilatın daha da güclənməsi istiqamətində Azərbaycanın səylərini xüsusi vurğuladı:



-Əvvəlcə icazə verin, əziz qardaşım, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi təbrik edim. O, ECO-nun 17-ci Zirvə görüşünə uğurla sədrlik edir. Həmçinin biz ona minnətdarıq ki, belə bir tarixi, gözəl Xankəndi şəhərində bizə bu cür səmimi qonaqpərvərlik göstərilmişdir. Xanımlar və cənablar, eyni zamanda, qeyd etmək istərdim ki, təşkilatımızın üzv dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsində göstərdiyiniz səyləri yüksək dəyərləndirirəm.

Tacikistan Prezidenti **Emoməli Rəhmon** ticarət, nəqliyyat, energetika, sənaye, kənd təsərrüfatı sahələrində əməkdaşlığın inkişafından danışaraq, geniş və əlaqələndirilmiş işbirliyinin müasir təhdidlərlə mübarizədə səmərəli ola biləcəyini diqqətə çatdırdı. O, Azərbaycanda keçirilən Zirvə görüşünün münasibətlərin hərtərəfli inkişafına töhfə verəcəyinə əminliyini bildirərək dedi:

– Mən əvvəlcə bugünkü görüşün təşkilinə və səmimi qəbula görə Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevə minnətdarlığımı bildirirəm. Eyni zamanda, hörmətli İlham Heydər oğlu, mən Sizi təşkilatımızın 17-ci Zirvə görüşünün sədri seçilməyiniz münasibətilə təbrik edirəm.

Türkiyə Prezidenti **Rəcəb Tayyib Ərdoğan** Zirvə görüşünün keçirildiyi Xankəndi şəhərinin Qafqaz regionunda yeni inkişaf və sülh mərkəzinə çevriləcəyini vurğuladı, həmçinin Şuşa şəhərinin 2026-cı ildə İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı seçilməsi münasibətilə Azərbaycanı təbrik edərək bildirdi:

-Can Azərbaycanın səmimi qonaqpərvərliyi ilə bu gözəl şəhərdə bizi qəbul edən Prezident İlham Əliyev qardaşım başda olmaqla bütün rəsmi şəxslərə və Azərbaycan xalqına təşəkkür edirəm. Tədbirimizin işğaldan azad edilmiş bir şəhərdə - Xankəndidə keçirilməsi Zirvə görüşümüzə xüsusi bir əhəmiyyət və mənə qazandırır. İlham qardaşımın uzaqgörən yanaşması ilə bu qədim şəhərin Qafqazın yeni inkişaf və sülh mərkəzi olacağına ürəkdən inanıram.

Bugünkü müzakirələrimizin və iyulun 1-dən etibarən keçirilən qadın, gənclər və biznes forumlarının ölkələrimiz və bölgəmiz üçün xeyirli olmasını arzu edirəm.

Əziz qardaşlarım, ticarətdən nəqliyyata, ətraf mühitdən enerjiyə qədər müxtəlif sahələrdə geniş potensiala sahib təşkilatımızın bu Zirvə görüşünün iqlim dəyişikliyinə həsr edilməsinin son dərəcə doğru olduğunu düşünürəm. Azərbaycanda təşkil ediləcək Təmiz Enerji və Araşdırma mərkəzlərinin qurulmasına dair sənədlərin təsdiqlənməsi prosesinin ölkəmizdə son mərhələdə olduğunu da diqqətinizə çatdırmaq istəyirəm.

Şuşanın 2026-cı il İqtisadi Əməkdaşlıq Təşkilatının "Turizm paytaxtı" seçilməsi münasibətilə Prezident, dostum cənab İlham Əliyevin şəxsində bütün azərbaycanlı qardaşlarımızı təbrik edirəm.

Qazaxıstanın Baş naziri **Oljas Bektenov** Zirvə görüşünün Xankəndidə keçirilməsinin Azərbaycanın sülh və inkişafa dəstəyini ifadə etdiyini söylədi:

– İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə səmimi qonaqpərvərliyə və bu mühüm Zirvə görüşünün tarixi və gözəl Xankəndi şəhərində yüksək səviyyədə təşkil etdiyinə görə ürəkdən minnətdarlığımı bildirmək istəyirəm. Biz bu Zirvə görüşünün bu şəhərdə keçirilməsini vacib hesab edirik, eyni zamanda, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin salamlarını Sizə çatdırırıq. Tədbirin burada təşkil olunmasını Azərbaycanın sülhə, inkişafa və regional inteqrasiyaya sadiqliyinin parlaq nümunəsi kimi görürük. Şübhəsiz ki, qardaş Azərbaycanın sədrliyi ilə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü regional tərəfdaşlığın daha da inkişafına yeni təkan verəcəkdir.

Əfqanıstan Baş nazirinin müavini **Əbdül Qəni Bəradər** İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün təşkilinə görə Azərbaycana təşəkkür etdi. O, ölkəsinin ECO üzvləri ilə strateji əlaqələri həyata keçirməkdə maraqlı olduğunu bildirdi:

– Bizə göstərilmiş qonaqpərvərliyə və yaradılmış gözəl şəraitə görə Azərbaycan Prezidentinə səmimi-qəlbdən təşəkkür edirəm. Bu mötəbər Zirvə görüşü burada baş tutub. Zirvə görüşü əlamətdar tarixi məqamdır və bizim üçün bir bələdçidir. Bu, regional əməkdaşlığa, qarşılıqlı anlaşmaya və tərəqqiyə xidmət edən bir tədbirdir.

Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, xarici işlər naziri **Rəşid Meredov** İqtisadi Əməkdaşlıq Təşkilatının çoxtərəfli əməkdaşlığın inkişafında mühüm platforma olduğunu vurğuladı və tədbirə dəvət üçün Azərbaycan Prezidentinə təşəkkür edərək dedi:

– Əvvəlcə icazə verin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bugünkü Zirvə görüşündə iştirak etmək üçün Türkmənistan rəhbərliyinə göndərdiyi dəvətə görə təşəkkürümü bildirim. Fürsətdən istifadə edərək, mən Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədovun və Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun ECO-nun üzv dövlətlərinin rəhbərlərinə, hökumət başçılarına və Azərbaycan Prezidentinə salamlarını və dərin ehtiramını bildirim. ECO Zirvə görüşünün işini yaxşı təşkil etdiyinə və yüksək qonaqpərvərliyə görə Türkmənistanın nümayəndə heyəti adından Azərbaycan tərəfinə səmimi təşəkkürümü bildirmək istəyirəm.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti **Ersin Tatar** Azərbaycanın işğaldan azad olunmuş torpaqlarının uğurla bərpasından və belə mötəbər Zirvə görüşünün tarixi və qədim Azərbaycan şəhəri Xankəndidə təşkil edilməsindən məmnunluğunu bildirdi:

– İlk növbədə, bu mühüm Zirvə görüşünə ev sahibliyi edən Azərbaycan Respublikasının Prezidenti qardaşım cənab İlham Əliyevə və İqtisadi Əməkdaşlıq Təşkilatına Baş katib Əsəd Məcid Xanın timsalında təşəkkürlərimi bildirirəm.

Bu görüşün qardaş ölkə Can Azərbaycanın tarixi və qədim şəhəri Xankəndidə keçirilməsi bizi xüsusilə məmnun etmişdir. Beş illik qısa müddətdə bu Vətən torpaqlarının Qarabağ Fatehi cənab İlham Əliyevin liderliyi və bənzərsiz xalq həmrəyliyi ilə yenidən dirçəldilməsi bizləri də qürurlandırmaqdadır. Qarabağ Azərbaycan, Azərbaycan Qarabağdır!

Nigeriya Federativ Respublikasının büdcə və iqtisadi planlama naziri **Abubakar Atiku Baqudu** Zirvə görüşünə ev sahibliyi edən Azərbaycana qonaqpərvərliyə görə təşəkkürünü bildirərək dedi:

– Dəvətə və səmimi qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Hökumətinə və xalqına minnətdarlığımı bildirirəm. Qlobal iqtisadi qeyri-müəyyənlik fonunda, qlobal birliyin mühüm yol ayrıcında olduğu bir vaxtda bu önəmli Zirvə görüşünə ev sahibliyi etdiyinə görə Azərbaycan Prezidenti cənab İlham Heydər oğlu Əliyevə təşəkkürümü bildirirəm. Bundan əlavə, 20 il əvvəl Nigeriya səfirliyinin Azərbaycan Respublikasında akkreditasiyasına icazə verən Zati-alilərinə təşəkkür edirik.

BMT Baş katibinin müavini, Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyanın icraçı katibi **Armida Salsiah Aliscahbana** iqlim dəyişikliyi ilə mübarizədə Azərbaycanın səylərini xüsusi vurğuladı:

-BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramının birinci Zirvə toplantısının təşəbbüskarı olmaqla, 2024-cü ildə BMT-nin İqlim dəyişikliyi konfransına və ECO-nun bu Zirvə görüşünə ev sahibliyi etməklə çoxtərəfli əməkdaşlığın inkişafında göstərdiyi liderliyə görə Azərbaycan Respublikasının Prezidentinə səmimi təşəkkürümü bildirirəm. Bu görüş ECO-nun 2025-ci il üzrə baxışını əks etdirməklə yanaşı, təşkilatın davamlı və iqtisadi dayanıqlılığa doğru ümumi yollarını yenidən müəyyən etməyə yönəlmiş iqliməədavamlı gələcək üçün yeni ECO istiqaməti çərçivəsində baş tutur. Keçən il ilk dəfə olaraq qlobal orta temperatur sənayedən əvvəlki səviyyədən 1,5 dərəcə yuxarı qalxdı. Son proqnozlar göstərir ki, qlobal temperatur yaxın beş ildə bu səviyyədə qalacaq və yaxud da ona yaxın olacaqdır. Bu, hələ də Paris Sazişinin həddinin daimi pozulması deyilsə də, qətiyyətli addımlar üçün imkanların sürətlə daraldığından xəbər verir. Mən bu fürsətdən istifadə edərək, sizin hamınızı komissiyamızın 2026-cı ilin aprelində Bakıda keçiriləcək 82-ci sessiyasına dəvət etmək istərdim. Həmin tədbirin mövzusu heç kəsi kənarda qoymamaq, cəmiyyətin inkişaf etdirilməsindən ibarət olacaqdır. Mən Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə təşəkkürümü bildirirəm ki, o, belə bir mühüm təşəbbüsə öz dəstəyini vermişdir.

Sonra Türkiyənin ailə və sosial xidmətlər naziri **Mahinur Özdəmir Göktaş**, Azərbaycanın iqtisadiyyat naziri **Mikayıl Cabbarov** və Pakistan Milli Assambleyasının üzvü **Seyyidə Ənnah Batul** çıxış etdilər.

Sonda çıxış edən İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi **Əsəd Məcid Xan** Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində bir çox ilklərə imza atıldığını bildirdi və qeyd etdi ki, Azərbaycan həm ECO üçün yeni standartlar müəyyən edir, həm də təşkilat daxilində həmrəyliyi gücləndirir:

– Cəsarətin, möhkəmliyin və dirçəliş ruhunun qüdrətli rəmzi kimi dayanan Qarabağın gözəl Xankəndi şəhərində bu tarixi Zirvə görüşünə hazırlıq işlərinə yüksək səviyyədə nəzarət etdiyinə görə Zati-aliləri Prezident İlham Əliyevə ən səmimi təşəkkürümüzü bildiririk. Zati-aliləri, liderliyiniz və uzaqgörənliyiniz sayəsində bu Zirvə görüşündə bir sıra ilklərə imza atdıq. Birincisi, biz bu Zirvə görüşü çərçivəsində qeyd olunan ilk ECO həftəsində təkcə regionun rəhbərliyini, bir sıra xüsusi qonaqları deyil, həm də ECO təşkilatının bütün ailəsini bir araya gətirə bildik. Bu, bizim ilk ECO həftəsi çərçivəsində baş tutmuşdur. Həmçinin bu Zirvə görüşündə ilk dəfə olaraq biz ECO-nun 2035-ci ilədək yeni strateji məqsədlərini hazırlamaq üçün hökumətlərdən başqa, digər maraqlı dairələri, o cümlədən qadınları, gəncləri və özəl sektoru da cəlb etdik. Aydındır ki, Azərbaycan ECO-nun Zirvə görüşü üçün nəinki yeni standartı müəyyən etdi, yeni meyarları ortaya çıxardı, həm də çox vacib hesab olunan ECO ailə ruhunun yaradılması istiqamətində mühüm addım atdı. Ümidvarıq ki, gələcək Zirvə görüşləri bu təcrübəni davam etdirəcək.





*

Zirvə görüşünə yekun vuran **Prezident İlham Əliyev** dedi:

– Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli Zirvə görüşünün iştirakçıları.

Əziz dostlar.

İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü başa çatır.

Bu Zirvə görüşündə iştirakınıza, fikir və təkliflərinizə görə hər birinizə təşəkkürümü bildirirəm.

Xankəndi Zirvə görüşü bizim dostluğumuzun daha bir bariz nümunəsinə çevrildi.

Əminəm ki, səsləndirilən fikirlər və təkliflər katiblik tərəfindən ümumiləşdiriləcək və ECO-nun gələcək fəaliyyətində, o cümlədən 2026-2035-ci illər üçün inkişaf sənədinin hazırlanmasında nəzərə alınacaq.

Həm Zirvə görüşünün, həm də Biznes-Forumun, Gənclər Forumunun və Qadınlar Forumunun keçirilməsinə verdikləri dəstəyə görə ECO-nun Baş katibi cənab Əsəd Xana və katibliyə təşəkkür edirəm.

Son olaraq, ECO Həftəsinə töhfə vermiş forumların iştirakçılarına və məruzəçilərə təşəkkürümü bildirirəm.

Beləliklə, Zirvə görüşü bağlı elan olunur. Bir daha hər birinizə öz dərin minnətdarlığımı bildirirəm. Sağ olun.

***AZƏRTAC***

# Azərbaycan Prezidenti İlham Əliyev Xankəndidə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Xankəndidə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.**

Rəcəb Tayyib Ərdoğan Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün yüksək səviyyədə keçirildiyini vurğuladı.

Dövlətimizin başçısı Zirvə görüşündə iştirak etdiyinə görə Türkiyə Prezidentinə minnətdarlığını bildirdi.

Söhbət zamanı qardaşlıq və strateji müttəfiqlik münasibətlərimizin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi.

Rəcəb Tayyib Ərdoğan bir daha vurğuladı ki, qardaş Türkiyə hər zaman və hər bir məsələdə qardaş Azərbaycanın yanındadır. Türkiyə Prezidenti qeyd etdi ki, bu, həmişə belə olub və bundan sonra da belə olacaqdır.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanın bu sözlərinə görə təşəkkürünü bildirərək öz növbəsində vurğuladı ki, Azərbaycan da həm sevincli, həm də kədərli günlərdə həmişə qardaş Türkiyənin yanındadır.

Azərbaycan və Türkiyə prezidentləri, həmçinin əməkdaşlığımızın perspektivlərinə və qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi apardılar.

# Amerika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Donald Trampa

**Hörmətli cənab Prezident!**

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda dost Amerika xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Biz Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq münasibətlərinə və tərəfdaşlığa xüsusi əhəmiyyət veririk. Beynəlxalq sülh və təhlükəsizliyin gücləndirilməsi, terrorizmə və onun müxtəlif təzahürlərinə qarşı mübarizə, enerji təhlükəsizliyi və bir sıra digər mühüm sahələr üzrə fəal və səmərəli əməkdaşlığımız sıx tərəfdaşlığımızın səciyyəvi cəhətlərindəndir.

Məmnunluqla qeyd etmək istərdim ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın uzun illərdən bəri enerji sahəsində sadiq tərəfdaşıdır. Bu sahədə xoş ənənələrə əsaslanan və sağlam təməllər üzərində qurulmuş əməkdaşlığımız hazırda da uğurla davam edir. Azərbaycanın enerji strategiyası, eləcə də regionda sabitliyə və inkişafa xidmət edən nəhəng infrastruktur layihələrinin həyata keçməsinə ABŞ-nin göstərdiyi davamlı dəstəyini yüksək qiymətləndiririk.

Bu gün Azərbaycan-Birləşmiş Ştatlar dostluq əlaqələrini və tərəfdaşlığını keyfiyyətcə yeni səviyyəyə yüksəltmək üçün yaxşı imkanlar vardır. Hesab edirəm ki, iqtisadi-ticari, energetika, nəqliyyat, sənaye, aviasiya, yüksək texnologiyalar, sərmayə qoyuluşu və digər mühüm sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafı üçün böyük potensial mövcuddur.

İnanıram ki, qəti siyasi iradəmiz və birgə səylərimiz sayəsində dost və tərəfdaş ölkələrimiz arasında əlaqələr və əməkdaşlıq xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da hərtərəfli genişlənməyə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, Amerika Birləşmiş Ştatlarının dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 iyul 2025-ci il**

# Azərbaycan Prezidenti İlham Əliyevlə İran Prezidenti Məsud Pezeşkianın görüşü



**İyulun 4-də Xankəndidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın görüşü olub.**

Dövlət başçıları söhbət zamanı Azərbaycanla İranın dost, qonşu, qardaş ölkələr olduqlarını vurğulayaraq, ölkələrimiz arasında mədəni, etiqad, ənənələr, etnik baxımdan qohumluq və qardaşlıq əlaqələrinin mövcudluğunu qeyd etdilər.

Dövlətimizin başçısı dəvəti qəbul edib İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirakına görə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana təşəkkürünü bildirdi, onun bu səfərinin və keçirilən görüşün Azərbaycan-İran ikitərəfli əlaqələrinin, həmçinin İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq məsələlərinin müzakirəsi baxımından əhəmiyyətli olduğunu dedi.

Məsud Pezeşkianın bu ilin aprelində ölkəmizə rəsmi səfərinin ikitərəfli əlaqələrimizdə yeni səhifə açdığını vurğulayan Prezident İlham Əliyev həmin səfər zamanı müzakirə olunan mövzuların həyata keçirilməsi üçün hökumətlərarası komissiyanın rəhbərləri və aidiyyəti dövlət qurumları tərəfindən ardıcıl surətdə işlərin aparıldığını qeyd etdi.

Dövlətimizin başçısı İsraillə İran arasında qarşıdurmanın baş verməsindən dərhal sonra İrana qarşı olan bu hərəkətlərin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən qınanıldığını bildirdi. Prezident İlham Əliyev bu qarşıdurmada İranın rəsmi və mülki şəxslərinin həlak olması ilə əlaqədar bir daha Azərbaycan tərəfinin İran xalqına başsağlığını çatdırdı, Azərbaycan dövlətinin və xalqının İran dövləti və xalqı ilə həmrəyliyini, dəstəyini ifadə etdi. Dövlətimizin başçısı Azərbaycanın həmişə haqq-ədalətin tərəfdarı olduğunu vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, müsəlman ölkələri, o cümlədən qonşu dövlətlər ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən biridir.

İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün Azərbaycanda, Xankəndi şəhərində təşkil edilməsini və gələn il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün ölkəmizdə keçiriləcəyini vurğulayan dövlətimizin başçısı bütün bunları İslam dünyası tərəfindən ölkəmizə olan etimadın və hörmətin növbəti nümunəsi kimi qiymətləndirdi.

İran İslam Respublikasının Prezidenti də İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırdı.

Azərbaycana rəsmi səfərini və keçirilmiş görüşləri məmnunluqla xatırlayan Məsud Pezeşkian səfərin nəticəsi olaraq Azərbaycan-İran əlaqələrində yeni səhifənin açıldığını vurğuladı, bu xüsusda, artıq Bakı ilə Tehran, Bakı ilə Təbriz arasında təyyarə reyslərinin artırılmasını, Ağbənd-Kələlə avtomobil yolu körpüsünün tikintisi istiqamətində işlərin aparılmasını qeyd etdi və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxundu.

İran Prezidenti İsraillə baş vermiş qarşıdurma zamanı Azərbaycanın göstərdiyi dəstəyə və həmrəyliyə görə minnətdarlığını bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə, həmçinin ECO çərçivəsində əlaqələrin genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidenti İlham Əliyev BƏƏ nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Xankəndidə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaq Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana çatdırmağı xahiş etdi.

Sultan Əhməd Əl-Cabir İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilən 17-ci Zirvə görüşünün işinə uğurlar arzuladı. Qonaq Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərinin, həmçinin bu ərazilərin təbiətinin onda böyük təəssürat hissi oyatdığını dedi.

Görüşdə Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin hər iki ölkənin liderlərinin baxışlarına uyğun olaraq məhz strateji müstəvidə inkişafından məmnunluq ifadə edildi.

Azərbaycan ilə Birləşmiş Ərəb Əmirliklərinin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiyi vurğulandı.

Söhbət zamanı "Masdar" şirkətinin Azərbaycanda fəaliyyəti, bərpaolunan enerji sahəsində əməkdaşlıq və strateji fəaliyyət proqramları, bu istiqamətdə gələcək layihələrə dair fikir mübadiləsi aparıldı.

Görüşdə, həmçinin enerji, turizm, humanitar və mədəniyyət sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.

# Özbəkistan Prezidentinin Azərbaycana səfəri başa çatıb



**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin Azərbaycan Respublikasına səfəri iyulun 4-də başa çatıb.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov yola salıblar.

# Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın Baş naziri ilə görüşüb



**İyulun 4-də Xankəndidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşüb.**

Pakistanın Baş naziri İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün yüksək səviyyədə təşkil edildiyini deyərək, Təşkilatın daha da güclənməsi istiqamətində Azərbaycanın səylərini yüksək qiymətləndirdi.

Məhəmməd Şahbaz Şərif ölkələrimiz arasında qardaşlıq əlaqələrinin daha da inkişaf etdiyini vurğuladı və bu ilin mayında Laçın şəhərinə səfərini, Azərbaycan-Türkiyə-Pakistan formatında keçirilmiş üçtərəfli görüşü məmnunluqla xatırladı. Baş nazir Qarabağda, o cümlədən Xankəndi şəhərində aparılan genişmiqyaslı bərpa-quruculuq işlərini qeyd etdi. Azərbaycanla Pakistan arasında ikitərəfli əlaqələrin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, ticarət, sərmayələr, enerji və digər istiqamətlərdə uğurla inkişaf etdiyini vurğuladı.

Dövlətimizin başçısı dəvəti qəbul edib bu Zirvə görüşündə iştirakına görə Pakistanın Baş nazirinə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev də öz növbəsində Pakistanın Baş nazirinin Laçına səfərini, üçtərəfli formatda aparılmış müzakirələri məmnunluqla xatırladı.

Söhbət zamanı ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məmnunluqla qeyd olundu, regional məsələlərə dair fikir mübadiləsi aparıldı.

# BƏƏ nazirinin Azərbaycana səfəri başa çatıb



**Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, COP28-in Prezidenti Sultan Əhməd Əl-Cabirin Azərbaycana səfəri iyulun 4-də başa çatıb.**

Füzuli Beynəlxalq Hava Limanında qonağı Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Eldar Seyidov yola salıb.

# Şuşada Prezident İlham Əliyevin adından İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün iştirakçılarının şərəfinə rəsmi nahar verilib



**İyulun 4-də Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin rəhbərlərinin şərəfinə rəsmi nahar verilib.**

# Türkiyə Prezidentinin Azərbaycana səfəri başa çatıb



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına səfəri iyulun 4-də başa çatıb.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov yola salıblar.

# Tacikistan Prezidentinin Azərbaycana səfəri başa çatıb



**Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Azərbaycan Respublikasına səfəri iyulun 4-də başa çatıb.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Emoməli Rəhmonu Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov yola salıblar.

# Pakistanın Baş nazirinin Azərbaycana səfəri başa çatıb



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycan Respublikasına səfəri iyulun 4-də başa çatıb.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov yola salıblar.

# XİN: görüşlər, müzakirələr



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Xankəndi şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü çərçivəsində BMT-nin Baş katibinin müavini və Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi Armida Salsiah Aliscahbana ilə görüşüb.**

Görüşdə Azərbaycanla UNESCAP arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

UNESCAP-ın icraçı katibi Zirvə görüşünə dəvətə və ölkəmizin 2026-cı ildə UNESCAP-ın 82-ci sessiyasına ev sahibliyi təşəbbüsünə görə minnətdarlığını bildirib.

Görüş zamanı Azərbaycanın regionda və beynəlxalq platformalarda artan rolu yüksək qiymətləndirilib, ölkəmizin BMT-nin missiyasına verdiyi töhfələr, o cümlədən 2023-cü ildə Təşkilatın Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 25-ci ildönümü münasibətilə Zirvə toplantısına, 2024-cü ildə isə BMT-nin İqlim Dəyişikliyi Konfransı – COP29-a uğurlu ev sahibliyi və məhsuldar sədrliyi məmnunluqla xatırlanıb.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov İƏT-in 17-ci Zirvə görüşü çərçivəsində Pakistanın Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar ilə də görüşüb.**

Görüşdə Azərbaycan-Pakistan strateji tərəfdaşlığının mövcud vəziyyəti, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.

Son dövrlərdə ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin dinamikasının, siyasi dialoqumuzun intensivliyinin ikitərəfli münasibətlərimizin mahiyyətcə yeni mərhələyə keçməsində və daha da zənginləşdirilməsində əhəmiyyətli rol oynadığı diqqətə çatdırılıb.

Regional inkişaf, çağırışlar və fürsətlər barədə fikir mübadiləsi aparılıb, ikitərəfli formatda olduğu kimi, regional məsələlərdə də Azərbaycan və Pakistanın hər zaman bir-birinin legitim maraqlarını dəstəklədiyi bildirilib, dövlətlərimizin və xalqlarımızın mənafeyi naminə qarşılıqlı faydalı əməkdaşlığın davam etdiriləcəyinə əminlik ifadə olunub.

Nazirlər arasında Pakistanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında iyul ayı üzrə sədrliyi çərçivəsində təşəbbüslər barədə də geniş fikir mübadiləsi aparılıb.

*

Həmin gün xarici işlər naziri Ceyhun Bayramov İƏT-in 17-ci Zirvə görüşü çərçivəsində Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, xarici işlər naziri Rəşid Meredov ilə də görüşüb.

Görüş zamanı Azərbaycan və Türkmənistan arasında yüksəksəviyyəli qarşılıqlı səfərlərin, təmasların ikitərəfli əlaqələrimizin daha da inkişafında rolu və əhəmiyyətindən bəhs olunub. Regional təhlükəsizlik məsələləri, beynəlxalq təşkilatlar çərçivəsində, habelə Xəzər dənizi üzrə əməkdaşlıq mövzuları müzakirə edilib. İqtisadiyyat, ticarət, energetika, nəqliyyat, humanitar və mədəniyyət sahələri üzrə əməkdaşlığın genişləndirilməsi imkanlarına dair fikir mübadiləsi aparılıb.

*

**Dünən xarici işlər naziri Ceyhun Bayramov İƏT-in 17-ci Zirvə görüşü çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər nazirinin siyasi məsələlər üzrə müavini Lana Zaki Anvar Zaki Nusseibeh ilə görüşüb.**

Görüş zamanı dövlət başçıları arasında sıx dostluq və qardaşlıq münasibətlərinin əlaqələrimizin inkişafı üçün möhkəm təməl yaratdığı bildirilib, strateji tərəfdaşlığımızın daha da inkişafında iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin rolundan bəhs olunub.

İqtisadi, ticarət, investisiyalar, energetika və humanitar sahələrdə əməkdaşlıq, habelə İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və BMT-nin İqlim Dəyişikliyi Konfransı kimi beynəlxalq təşkilat və platformalar çərçivəsində qarşılıqlı faydalı fəaliyyətlərdən məmnunluq ifadə olunub.

Alternativ enerji sahəsindəki uğurlu müştərək layihələrdən bəhs olunub və bu sahədə əldə edilən nəticələr yüksək qiymətləndirilib. BƏƏ-nin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində humanitar mina təmizləmə və bərpa işlərində göstərdiyi dəstək yüksək qiymətləndirilib.

# İran Prezidentinin Azərbaycana səfəri başa çatıb



**İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycan Respublikasına səfəri iyulun 4-də başa çatıb.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İran Prezidenti Məsud Pezeşkianı Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər yola salıblar.

# Qırğızıstan Prezidentinin Azərbaycana səfəri başa çatıb



**Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycan Respublikasına səfəri iyulun 4-də başa çatıb.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Sadır Japarovu Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov yola salıblar.

# Baş prokuror Yardımlıda vətəndaşlarla görüşüb



**İyulun 4-də Baş prokuror Kamran Əliyev Yardımlı Rayon Prokurorluğunun inzibati binasında Yardımlı, Masallı, Cəlilabad rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 19 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

*XQ*

# Kreml köhnə "buxov"ları yaddan çıxarmalıdır

## Moskvadan barışıq çağırışları çoxalsa da...

**Azərbaycan indi nə işğaldan boynu bükülmüş ölkə, nə də qaməti əyilmiş xalqdır. Bəli, bizi 30 il boyu belə görməyə öyrəşmiş və bu durumun əbədi davam edəcəyini düşünürdülər. Amma yanıldılar. Əzəli torpağını işğaldan azad etməklə tarixi ədaləti bərpa edən, qamətini dikəldən, qürurunu qaytaran Azərbaycan dövləti bu gün özünə və xalqına saygılı yanaşma, bərabərhüquqlu əməkdaşlıq tələb edir. Onun bunu tələb etməyə haqqı çatır və hər kəs bu reallıqla barışmalıdır.**



Məlumdur ki, Rusiyanın siyasi isteblişmentində Azərbaycanın Qarabağ Zəfəri, müstəqil siyasəti ilə barışmaq istəməyən, reallığı həzm edə bilməyənlər var. Nədənsə onları Azərbaycanın Türkiyə və digər türk respublikaları ilə əlaqələri, Çinlə, Pakistanla yaxınlaşması əməlli-başlı narahat edir. Başa düşmək istəmirlər ki, indi XIX deyil, XXI əsrdir və çar Rusiyasının Qafqaza, Mərkəzi Asiyaya yürüşləri, xalqları buxovlama siyasəti tarixin arxivində qaldı. Daha o buxovlar unudulmalıdır. Çünki Azərbaycan artıq 20 faiz torpağı işğal olunmuş məğlub ölkə, gözüqıpıq xalq deyil. Azərbaycan torpağı ilə bərabər qürurunu da geri qaytarmış qalib xalqdır və bu reallığa uyğun şəkildə özünə hörmət tələb edir.

*

Şimaldan təzadlı, bəzən bir-birini təkzib edən mesajlar gəlməkdə davam edir. Doğrudur, rəsmilərin dilindən iki ölkə arasında münasibətlərin normallaşmasına çağırışların yer aldığı açıqlamalar üstünlük təşkil etməyə başlayıb. Amma neçə illərdir Kremlin anti-Azərbaycan təbliğat ruporu missiyasını yerinə yetirənlər məlum ritorikalarını dəyişmək barədə düşünmürlər.

Belələrinin başında isə "Rossiya-1" telekanalında öz adına müəllif proqramının aparıcısı Vladimir Solovyov gəlir. O, Yekaterinburqda qətlə yetirilən azərbaycanlılar – Ziyəddin və Hüseyn Səfərov qardaşları ilə bağlı hökumətin atdığı addımlardan "təəccübləndiyini" bildirib. Təəccübünü də Kremlə yersiz təkəbbürlə ünvanladığı suallarla ifadə edib. Misal üçün: "Səfərov qardaşlarının meyitləri niyə bu tezliklə Azərbaycana təhvil verildi? Məhkəmə-tibbi ekspertizası aparılıbmı? Onun nəticələrini təsdiqləyən video görüntülər varmı? Axı istintaq hələ də davam edir, ölümdən sonra meyitlərə xəsarət yetirilib-yetirilmədiyini necə sübut edəcəksən?" və sair. Rusiyadakı erməni lobbisinin "yemlədiyi" çoxdan məlum olan Solovyov bu suallarla ictimai rəydə şübhə toxumu səpməyi hədəfləyir. Əslində, onun verdiyi sualların hamısının bir cavabı var, o da Bakıda verildi. Səfərov qardaşlarının cənazələri Azərbaycana gətirildikdən sonra Bakıda təkrar tibbi ekspertizadan keçirilib və Rusiyada həkim rəylərinin həqiqəti əks etdirmədiyi təsdiqlənib. Sübutlar qarşı tərəfə də təqdim olunub. Solovyovun "təəccübünün" yox, narahatlığının səbəbi Yekaterinburqda ekspertlərin verdiyi rəylərin saxta çıxması, qətli ört-basdır etmək cəhdinin ifşa olunmasıdır. Ona görə hirslənib və müstəntiq suallarını Kremlə ünvanlayıb. Amma artıq gecdir, indi Rusiya ədliyyəsi cinayətin izlərini basdırmaqla deyil, cinayəti törədənləri müttəhimlər kürsüsünə oturtmaqla məşğul olmalıdır.

"Ədalətli Rusiya – Həqiqət naminə" Partiyasının lideri Sergey Mironov isə Solovyovdan daha "maraqlı" təkliflə çıxış edib. O, baş prokuror İqor Krasnova müraciət edərək, Azərbaycan diasporları və onlara bağlı strukturların araşdırılmasını tələb edib: "Rusiya Federasiyasının bütün subyektlərində Azərbaycan diasporlarının və onlara bağlı strukturların fəaliyyətlərinin hərtərəfli araşdırılmasını xahiş edirəm". Bu zaman, o, "Sadovod" və "Food City" ticarət mərkəzlərinin fəaliyyətinin qanuna uyğunluğunun yoxlanmasının vacibliyinə də diqqət çəkib. S.Mironov diasporların fəaliyyətinin "dövlətin və onun vətəndaşlarının təhlükəsizliyini təhdid etdiyini" dəfələrlə bildirən partiyadaşlarının mövqeyinə istinad edir. Onların fikrincə, ikili vətəndaşlığı olan şəxslərin, guya, daxil olduqları cinayətkar qruplaşmalar cəmiyyətdə "xüsusi narahatlıq" doğurur. Düşünürük ki, Dumanın sabiq spikeri, hazırda partiya sədri Mironovun diqqətinə Rusiya DİN-in ölkədə cinayətkarlıqla bağlı 2025-ci ilin ilk rübünün statistikasını çatdırmağımız yetərlidir. Həmin müddətdə bu ölkədə əcnəbi miqrantların adı keçən cinayət faktları yerli vətəndaşların törətdiyi cinayətlərdən iki dəfə azdır.

*

Bu məqamda yadımıza bir epizod düşdü. Taleyin ironiyasına diqqət edin: Yekaterinburq hadisəsindən iki-üç gün əvvəl Azərbaycan sərhədçiləri məlum səbəbdən İrandan gələn Rusiya vətəndaşlarını səmimiyyət və qayğıkeşliklə qarşılayıb, mehribanlıqla öz ölkələrinə yola saldılar. Buna görə Rusiyanın Bakıdakı səfiriyi və Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Azərbaycan hökumətinə minnətdarlıq etmişdi. Bəs onların polisi bizim soydaşlarımızla necə davrandı? Müqayisə qüsurlu görünə bilər, amma yanaşma diqqət çəkir.

Bu arada Ermənistan mediası Rusiya və Azərbaycan arasındakı gərginliyin finişini "hərbi münaqişə" formasında görməyi arzuladığın yazır. "NEWS.am" saytı "Rusiya Zabitləri" Ümumrusiya Təşkilatının rəyasət heyətinin sədri Sergey Lipovoyun fikirlərini tirajlayıb. O, indiki vəziyyətdə "Rusiya və Azərbaycan arasında hərbi münaqişəni istisna etmədiyini" deyib. Onun sözlərinə görə, Bakı Ukraynadakı müharibəni nəzərə alaraq Moskvanı "münaqişəyə təhrik etməyə, bununla da Rusiyanı zəiflətməyə" çalışacaq. Hayların xəstə təxəyyülünün məhsulu olan bu "hərbi versiyanı" şərh etməyə belə ehtiyac görmürük.

*

Amma iki ölkə arasındakı diplomatik gərginliyin Moskvanın siyasi iradə və praqmatik yanaşma nümayiş etdirməsi sayəsində aradan qaldırıla biləcəyinə inananlar da az deyil. "Azərbaycanlıların ölümündə günahkarların cəzalandırılması iki ölkə arasında mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə töhfə verə bilər". Bunu rusiyalı senator Andrey Klişas deyib. Onun qanuna və sağlam məntiqə söykənən bu yanaşmasının Rusiya cəmiyyətində tezliklə geniş dəstək qazanacağına inanmaq istərdik.

Rusiyalı politoloq Sergey Markov isə Azərbaycan və Rusiya arasında yaşanan diplomatik gərginliyin səbəbləri ilə bağlı 10 versiya irəli sürüb. Bu versiyaların içində Bakının irəli sürdüyü Yekaterinburqda insanların hüquqlarının pozulması, keçən ilin dekabrında Çeçenistan səmasında AZAL-ın sərnişin təyyarəsinin vurulmasına görə rəsmi Moskvanın üzr istəməməsi, Rusiya ordusunun Azərbaycan neftinin Odessa vasitəsilə emal olunduğu Kremençuqdakı neft emalı zavoduna gözlənilməz hücumu, Zəngəzur nəqliyyat dəhlizinə gələcək nəzarətin yenidən bölüşdürülməsi, eləcə də Azərbaycanın özünün yüksək geosiyasi statusunu təsdiqləməsini Kremlin həzm edə bilməməsi kimi səbəblər də var.

Yeri gəlmişkən, Azərbaycanın "Sputnik Azərbaycan" işi üzrə istintaqa cəlb edilmiş beş əməkdaşın sərbəst buraxılması barədə qərarını hüquqi və siyasi baxımdan xoşməramlı jest kimi dəyərləndirmək olar. Bakının bu addımı Moskva ilə münasibətləri qaydaya salmaq, normallaşdırmaq istəyinin göstəricisidir. Həmin şəxslərin polisin nəzarəti altında olsa da, azadlığa buraxılması ikitərəfli münasibətlərdə yaranmış soyuqluğun nisbətən isti rejimə keçməsindən, Azərbaycanın dialoqa açıq mövqe nümayiş etdirməsindən xəbər verir. Beləliklə, Bakı bu addımı ilə barışığa çağırış nidasını verdi. İndi qalıb Moskvanın bundan sonra konkret addımlar atıb-atmayacağını diqqətlə izləməyimiz. Diplomatik böhranın tam həlli üçün yalnız söz və bəyanatlar kifayət eləmir. İndi Kremldən polisin, hüquq-mühafizə orqanlarının davranışlarını düzgün qiymətləndirmək və buna uyğun tədbirlər görmək tələb olunur.

Əgər Rusiya Qafqazda, Mərkəzi Asiyada mövcudluğunu qoruyub saxlamaq, iddiasız və təmənnasız tərəfdaş olmaq istəyirsə qarşı tərəfə ilini uzatmalı, Azərbaycanla bərabərhüquqlu münasibətlər qurmalıdır. Münasibətlərin əvvəlki normal məcraya qayıtmasından ötrü rəsmi Moskva həm məlum təyyarə qəzasında ölənlərin, həm də Yekaterinburqda polisin öldürdüyü qardaşların ailələrindən üzr istəməli, günahkarlar cəzalandırılmalı, zərərçəkmişlərə təzminat ödənilməli və gələcəkdə bu kimi halların bir daha baş verməyəcəyinə təminat verilməlidir.

*İmran BƏDİRXANLI*
*XQ*

### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Azərbaycanın heç vaxt Rusiya ilə münasibətləri pozmaq planı olmayıb. Bizi bir-birimizlə birləşdirən bir çox amillərlə yanaşı, siyasi, iqtisadi əlaqələri tənzimləyən rəsmi sənədlər mövcuddur. İkitərəfli münasibətlər məhz həmin sənədlər əsasında inkişaf edir. Amma Yekaterinburqda baş verən məlum hadisələri Bakı adekvat reaksiya verməli idi və bunu etdi. Bizə elə gəlir ki, Moskvada bunu eşitdilər və başa düşdülər. Çünki verilən reaksiyalar konkret əsaslara söykənirdi. İki azərbaycanlı vəhşicəsinə döyülərək öldürülmüş, digərləri isə həbs olunublar. Əlbəttə, Azərbaycan buna məntiqi bir cavab tələb etməli idi. Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarova yaxşı başa düşür ki, iki ölkə arasında münasibətlərin daha da gərginləşməsi, ilk növbədə, Rusiyanın maraqlarına ziddir. Artıq bunu digər rəsmi dairələrdə də anlamağa başlayıblar. Rusiya XİN münasibətləri yumşaltmağa yönəlik ifadələrlə açıqlama verirsə, bunu normal, müsbət hal kimi qəbul etmək olar.

Amma Bakı törədilən hadisələrə birbaşa cavabdeh olan Rusiya güc strukturlarının rəsmilərinin də açıqlamalarını eşitmək istəyir. Onlar müvafiq izahat verməlidirlər. Qanlı hadisə hansı səbəbdən, nəyin üstündə baş verib? Məhz bundan sonra Azərbaycan–Rusiya münasibətləri normal məcraya düşə bilər. Hesab edirik ki, bunu həm Moskvada, həm də Bakıda başa düşürlər. Əgər Kreml diplomatik ritorikada yumşalma nümayiş etdirirsə, bu zaman Bakı da buna adekvat olaraq normal yanaşma sərgiləyəcək.

---

# Erməniпərəst merin maskası yırtıldı

## *Azərbaycanı ittiham edən Estrozi korrupsiyada suçlanır*

**Fransada yerli idarəetmə orqanlarında korrupsiya və dövlət vəsaitlərinin mənimsənilməsi ilə bağlı təhqiqatların coğrafiyası getdikcə genişlənir. Xüsusilə, bəzi şəhər merlərinin fəaliyyəti həm maliyyə, həm də etik baxımdan ciddi suallar doğurur. Bu çərçivədə diqqətçəkən son hadisə Aralıq dənizi sahilində yerləşən, ölkənin böyüklüyünə görə Paris, Marsel, Lion və Tuluzadan sonra beşinci böyük şəhəri olan Nitsada baş verib. Şəhərin meri Kristian Estrozi, onun həyat yoldaşı – jurnalist Lora Tenuci və "France Televisions"un prezidenti Delfin Ernotte Kunci polis nəzarətinə götürülüblər. Marsel prokurorluğunun məlumatına görə, onlar Nitsadakı tədbirlərin təşkili ilə bağlı qanunsuz faiz götürmə və dövlət vəsaitlərinin mənimsənilməsi ittihamları üzrə açılan cinayət işi üzrə aparılan istintaq çərçivəsində dindiriliblər.**



Ümumilikdə, on nəfər, o cümlədən "La Tribune" qəzetinin sahibi Jan-Kristof Tortora da istintaqa çağırılıb. Cinayət işi K.Estrozinin rəhbəri olduğu meriyanın 2008–2012-ci illərdə və Nitsa Provans–Alp–Mavi Sahil metropoliteninin 2023-cü ildə Nitsa İqlim Sammitinin təşkili üçün "La Tribune" qəzetinə birbaşa və dolayı ictimai yardım göstərdiyi şərtlərə görə açılıb. İstintaq "France Televisions" tərəfindən Nitsada təşkil edilən "Fete de la Musique" və "La Tribune Nouvelle" kimi tədbirlərin 2020–2022-ci, habelə 2018–2019-cu illlər buraxılışlarını da əhatə edir. L.Tenucinin vəkili Mari-Aliks Kanu-Bernard israrla bildirib ki, yeni seçki ərəfəsində müxalifət tərəfindən seçilmiş merlərə qarşı bu ittihamın irəli sürülməsi gözlənilməzdir. K.Estrozi müxalifətdə olan "Horizons" partiyasını təmsil edir və 2026-cı ildə yenidən seçilmək üçün namizədliyini irəli sürəcəyini açıqlayıb. O və digər təqsirləndirilən şəxslər bir neçə saat dindirildikdən sonra sərbəst buraxılıblar.

Fransız merə cinayət işinin açılmasında bizim üçün önəmli məqam, şübhəsiz ki, onun ermənipərəst olması ilə bağlıdır. Əgər biz "Google"da "Kristian Estrozi+ermənilər" yazıb axtarışa versək, onun hayları dəstəkləyən, Azərbaycanı əsassız yerə ittiham edən, böhtan dolu saysız-hesabsız açıqlamalarını görə bilərik. İndi isə məlum olur ki, ermənilərı dəstəkləmək üçün, necə deyərlər, dəridən-qabıqdan çıxan bu şəxs həm də korrupsioner imiş. Fransa şəhərinin merinin belə yanaşması bizim üçün təəccüblü deyil. Çünki Paris başda olmaqla ölkənin irili-xırdalı şəhərlərinin, departament, kommuna və kontonlarının əksəriyyətinin rəhbərləri azərbaycanofob, türkofob və islamafobdurlar. Onlar Ermənistan–Azərbaycan münasibətləri ilə bağlı məsələlərə "qara eynək" arxasından baxmağa öyrəşiblər. Bu yanaşmanın yaxın gələcəkdə dəyişəcəyi gözlənilən deyil. Ermənistanı açıq şəkildə dəstəkləyən və erməni lobbisinə yaxınlığı ilə tanınan Estrozinin belə bir qalmaqalda adının hallanması, əslində, onun ikili standartlarla idarə etdiyi siyasi davranışın məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

Onu da bildirək ki, 70 yaşlı Estrozi 2005–2007-ci illərdə Dominik de Vilpen hökumətində ərazi inkişafı üzrə nazir vəzifəsini tutub, 2009-cu ildən 2010-cu ilədək sənaye naziri olub, 2015-ci ildə isə Nitsanın meri seçilib. Etrozi istər nazir, istərsə də mer olduğu dövrdə verdiyi bəyanatlar onun erməni lobbisinin siyasi sifarişlərini yerinə yetirən fiqur olduğunu göstərir. Bununla bağlı hələ 2015-ci il iyunun 5-də "Armenpress" agentliyində yerləşdirilmiş "Nitsa meri erməni soyqırımının tanınmasını bütün insanların borcu hesab edir" sərlövhəli məqalə diqqəti cəlb edir. Məqalədə bildirilir ki, Fransada işgüzar səfərdə olan Ermənistan prezidenti Serj Sarkisyan iyunun 5-də Nitsada şəhərin meri K.Estrozi ilə görüşüb. S.Sarkisyan görüş zamanı deyib ki, Nitsa İrəvanla qardaş şəhərdir, dost Fransa isə Ermənistan və erməni xalqı üçün xüsusi ölkədir. Sarkisyan onu da bildirib ki, Ermənistan K.Estrozinin fəaliyyəti və ermənilərə qayğıkeş münasibəti ilə tanışdır. Onun sözlərinə görə, aprelin 24-də "erməni soyqırımı"nın 100 illiyi ilə bağlı Nitsa şəhərində keçirilən tədbirlər bu münasibətin əyani sübutudur.

Nitsa meri isə qeyd edib ki, onun fikrincə, "erməni xalqının yaşadığı faciəni" tanımaq bütün insanların "borcu"dur. O, Nitsa ilə İrəvan arasında qurulan əlaqələrdən və əməkdaşlıqdan məmnunluqla danışıb, Ermənistan prezidentinin onlar üçün həmişə əziz qonaq olduğunu vurğulayıb.

2020-ci ilin dekabrında Ermənistanın Fransadakı səfiri Hasmik Tolmajyanla görüşdə Estrozi açıq şəkildə Azərbaycanın hərbi əməliyyatlarını "qəbuledilməz" adlandırmış, ölkəmizi "təcavüzkarlıqda" suçlamışdı. Bununla da regionda baş verən proseslərə birtərəfli və qərəzli yanaşdığını bir daha sübut etmişdi.

O, 2021-ci ildə Nitsada erməni diasporunun təşəbbüsü ilə keçirilən "Artsaxın dostları" adlı separatçı təşəbbüsə dəstək verərək, "Artsax xalqının mübarizəsi bizim ortaq dəyərlərimizə söykənir" kimi avantürist bəyanat səsləndirmişdi. Başabəla mer Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş bu bəyanatın təkcə beynəlxalq hüquqa deyil, Fransanın daxili qanunvericiliyinə zidd olduğunu nəzərə almamışdı.

Elə həmin il keçmiş separatçı rejimin "dövlət naziri" Artak Beqlaryanla videobağlantı qurması və burada Azərbaycanın sülh cəhdlərini "zor tətbiqi" kimi təqdim etməsi onun siyasi məsuliyyətsizliyi kimi qiymətləndirilə bilər.

Estrozinin Nikol Paşinyanı "demokratiya lideri", Ermənistanı isə "demokratiyanın dayaq nöqtəsi" adlandırması onun ifrat ermənipərəstliyinin göstəricisidir. İndi isə o, həyat yoldaşı və dövlət televiziyasının rəhbəri büdcə vəsaitlərinin mənimsənilməsinə görə istintaqa cəlb olunub. Deməli, illərlə "dəyərlər", "sülh" və "ədalət" deyə aparılan fəaliyyətin arxasında korrupsiya və siyasi lobbi oyunları dayanıb. Azərbaycan əleyhinə saxta ritorika ilə çıxış edən şəxslərin indi hüquqi müstəvidə cavab verməsi ədalətin, gec də olsa, öz yerini tapması kimi qiymətləndirilməlidir. Estrozinin iflası təkcə bir siyasi fiqurun reputasiyasının darmadağın olması deyil, həm də Fransada ermənipərəst siyasi şəbəkələrin çökməyə başladığının göstəricisidir.

**Bu istiqamətdə fikirlərini XQ ilə bölüşən Beynəlxalq Avrasiya Mətbuat Fondunun vitse-prezidenti, siyasi şərhçi Oğuz Mirzəyev** bildirdi ki, əslində, K.Estrozi qalmaqalı bizim üçün gözlənilməz deyil. Onun sözlərinə görə, Nitsa merinin həyat yoldaşı və tanınmış media rəhbərləri ilə birlikdə korrupsiya istintaqına cəlb olunması sadəcə hüquqi deyil, həm də siyasi-əxlaqi məsələdir: "Bu hadisə təkcə bir məmurun özfəaliyyəti deyil, Qərb siyasi sistemində illərlə "toxunulmaz" hesab edilən fiqurların əsl üzünü açır. Özünü demokratik dəyərlərin müdafiəçisi kimi təqdim edən Estrozinin indi məhz bu dəyərləri pozmaqda ittiham olunması "vicdanlı siyasətçi" mifinin simvolik dağılmasıdır".



O.Mirzəyev qeyd etdi ki, Estrozi Azərbaycana tanış simadır: "O, uzun illərdir erməni separatizminin açıq müdafiəçilərindən biridir. 2011-ci ildə Nitsa şəhərini tarixin zibilliyinə atılmış qondarma "Artsax" rejimi ilə "qardaşlaşdırması", 2020-ci ildə Vətən müharibəsi zamanı Ermənistanı dəstəkləyən bəyanatları və Qarabağın separatist "nümayəndələri" ilə Nitsada qurduğu təmaslar bu qərəzin bariz nümunələridir. Bu davranışlar Azərbaycanın ərazi bütövlüyünə qarşı siyasi sabotaj olmaqla yanaşı, beynəlxalq hüquqa açıq hörmətsizlik idi".

Siyasi şərhçinin fikrincə, bugünkü istintaq bu mövqenin arxasında hansı motivlərin dayandığını göstərir: "Marsel prokurorluğunun məlumatına görə, Estrozi rəhbərlik etdiyi meriya və metropoliten strukturlarından ictimai vəsaitləri "La Tribune" qəzetinə və digər media tədbirlərinə yönəldib. Bu dəstək şəffaf mexanizmlərə yox, şəxsi və siyasi şəbəkələrin qorunmasına xidmət edib. Söhbət artıq media fəaliyyətindən deyil, ictimai resursların siyasi alətə çevrilməsindən gedir. Bu kontekstdə haqlı olaraq sual meydana çıxır: Azərbaycanın beynəlxalq imicinə qarşı illərlə açıq kampaniya aparmış bu şəxsin hansı əxlaqi və siyasi legitimliyi qalıb? Onu hələ də "demokratik dəyərlərin təmsilçisi" kimi təqdim edən dairələr bu sual qarşısında susmamalıdırlar. Fransanın bəzi siyasi çevrələri zaman-zaman Azərbaycana qarşı insan haqları ilə bağlı tənqidlər irəli sürürlər. Biz tənqidlərə açığıq. Çünki obyektiv yanaşma olduqda hər bir tənqid inkişaf üçün fürsətdir. Lakin ikili standartlar və selektiv münasibət sərgilədikdə bu tənqidlər öz dəyərini itirir. Özlərini demokratiyanın keşikçisi kimi göstərənlər indi öz oyun qaydalarına cavab verməkdə məcburiyyətindədirlər".

Müsahibimiz dedi ki, Estrozi qalmaqalı bir şəxsdən daha çox, bir sistemin üzərindəki sualları artırır: "O sistem ki, şüarlarda ədalət və şəffaflıqdan danışır, lakin praktikada lobbiçiliyə, mediaya nəzarətə və şəxsi maraqlara əsaslanır. Elə buna görə də Azərbaycana qarşı səsləndirilən bəzi "mənəvi" bəyanatlar, əslində, prinsiplərdən yox, maraqlardan irəli gəlir. Bu hadisə eyni zamanda bizim üçün də xəbərdarlıqdır. Çünki beynəlxalq müstəvidə üzləşdiyimiz qərəzli yanaşmaların arxasında çox vaxt siyasi sifarişlər və şəxsi ambisiyalar dayanır. Estrozi nümunəsi bu həqiqəti bir daha təsdiqləyir. Bizim üçün isə dəyərlər bəyanatda yox, davranışdadır. Qərbdə isə, görünür, bəzi dairələr bu fərqi çoxdan unudublar. Demokratiyanı şüara, medianı isə təsir vasitəsinə çevirənlərin maskası indi tək-tək deyil, bütöv, sistemli şəkildə çıxarılır. Bu mənada Kristian Estrozi qalmaqalı bizim üçün sürpriz deyil. Bu, sadəcə, gerçəyin gec də olsa təsdiqidir. Sonda həqiqət hər zaman öz sözünü deyir".

*Səxavət HƏMİD*
*XQ*

# Azərbaycanın xarici siyasəti: sülhsevərlik və humanitarlıq aspekti



I MƏQALƏ

## Yeni xarici siyasət təlimləri

Xarici siyasətə yanaşmalarda yeni təlimlər meydana gəlməkdədir. Onlar əsasən müasir dünyanın dəyişən gerçəkliklərinə olan siyasi-nəzəri reaksiyanı ifadə edirlər. Bir qayda olaraq çoxqütblülüyü, beynəlxalq təşkilatları, yeni texnologiyaları və dayanıqlı inkişaf konsepsiyalarını da yeni yanaşmalarda nəzərə alırlar. Bununla yanaşı, hər bir müstəqil dövlətin özünəməxsus baza xarici siyasət prinsipləri, strategiyası, xarici siyasət fəaliyyətinin məqsəd və vəzifələri olur. Bu üç faktor hər bir xarici siyasət konsepsiyasında nəzərə alınır.

Eyni zamanda, onlardan fərqli faktorları da dövlət xarici siyasət konsepsiyasına daxil edə bilər. Bu baxımdan müstəqil dövlətlərin konsepsiyasında "milli maraqlar" anlayışı da əsas prinsiplər sırasında ola bilər. Azərbaycanda 1993-cü ildən xarici siyasət konsepsiyasında milli maraq baza prinsip olaraq mövcuddur və xarici siyasət strategiyası həmin faktora görə hazırlanır. Xarici siyasi fəaliyyətin məqsəd və vəzifələri milli maraqlar əsasında müəyyən edilmiş strategiyanın optimal reallaşdırılması üçün müəyyən edilir. Bununla çoxsəviyyəli və mürəkkəb bir fəaliyyət sistemi meydana gəlir. Bir müqayisə aparaq.

Rusiya 2023-cü il xarici siyasət konsepsiyasında ilk dəfə olaraq məhz bu yanaşmaya keçmişdir. Ona qədər hazırlanan xarici siyasət konsepsiyaları "hakimiyyətin tranziti" modeli üzrə formalaşdırılırdı. Yəni Rusiyada xarici siyasət seçilən prezidentə uyğun olaraq müəyyən edilirdi. Bunun başlıca səbəbi Rusiyanın güclü dövlət kimi öncədən müəyyən edilmiş və dəyişməz hesab olunan xarici siyasət kursu ilə bağlıdır. Kurs dəyişmir, lakin o çərçivədə seçilən prezidentin daha uğurlu olması üçün xarici siyasi fəaliyyətdə müəyyən korrektələr ola bilirdi.

XXI əsrin üçüncü onilliyində Moskva anladı ki, xarici siyasət konsepsiyasının təməl şərtləri yenilənməlidir. Nəticədə ənənəvi "dəyişməz üçlüyə" (baza prinsiplər, strategiya, məqsəd və vəzifələr) yeni bir parametr əlavə etdilər – milli maraqlar! Bu o demək idi ki, Moskva da Bakı kimi milli maraqlar üzərində xarici siyasətin strategiyasını, prinsiplərini, məqsəd və vəzifələrini müəyyən etmək qənaətinə gəlmişdir.

Bu, böyük bir dövlətin xarici siyasət konsepsiyasında maraqlı dəyişmədir.

Birincisi, aydın olur ki, öncədən Azərbaycanın qəbul etdiyi strateji kursun doğruluğuna Rusiya kimi böyük dövlət də əmin olmağa başlamışdır.

İkincisi, Rusiya rəsmi olaraq xarici siyasətdə milli maraqları baza prinsipi kimi qəbul edirsə, o deməkdir ki, başqa müstəqil dövlətlərin milli maraqlarına hörmətlə yanaşmanı və ona əməl etməyi də avtomatik olaraq öhdəsinə götürür. Əks halda heç bir dövlət başqasının milli maraqlarına qərəzli yanaşan ölkənin milli maraqlarına sayğı göstərməz.

Məsələnin başqa bir tərəfi milli maraqların təminini baza prinsip kimi xarici siyasət konsepsiyasının təməlinə qoymuş dövlətin praktiki fəaliyyətdə hansı dəyərlərə üstünlük verməsi ilə bağlıdır. Çünki ümumi siyasi-nəzəri səviyyədə gözəl terminlər işlətmək olar, ancaq onların gerçək əhəmiyyəti dövlətin praktiki fəaliyyətində təsdiqini tapır.

Sadə ifadə etsək, demək asandır, onu yerinə yetirmək düzgün üsul seçməyi və müsbət nəticələr əldə etməyi tələb edir. Bu kontekstdə Azərbaycanın xarici siyasət konsepsiyasının bir özəlliyinə baxmaq zərurəti vardır. Çünki məhz həmin özəlliklər rəsmi Bakının davamlı olaraq xarici siyasətdə uğur qazanmasının fəlsəfəsini açır.

## Heydər Əliyev yanaşması

Ulu öndər keçən əsrin 90-cı illərinin əvvəllərində müstəqil Azərbaycan Respublikası üçün elə xarici siyasət konsepsiyası müəyyən etmişdir ki, XXI əsrdə böyük dövlətlər üçün belə cəlbedici olmuşdur. Həmin konsepsiya bir sıra prinsiplərə əsaslanır. Politoloqlar onları aşağıdakı kimi xarakterizə edirlər:

- Demokratiyanın inkişafı;
- Bazar iqtisadiyyatının inkişafı;
- Qanunun aliliyi;
- Region dövlətləri ilə mehriban qonşuluq siyasəti;
- Regional sabitlik və təhlükəsizliyin təmini.

Bu prinsiplər yığcam şəkildə özlərində demokratiya və qanunun aliliyini, mehriban qonşuluğu, təhlükəsizlik və sabitliyi, iqtisadi tərəqqini, ərazi bütövlüyünün təminini, çoxvektorlu siyasəti ehtiva edir. Bütün bunların müəyyənedici və istiqamətverici faktoru isə milli maraqların prioritetliyidir.

XXI əsrin başlaması ilə vurğulanan konsepsiyada iqtisadiyyatın diversifikasiyası, enerji strategiyasının yeni mərhələsinə keçid və "yaşıl iqtisadiyyatın" yaradılması ön plana çıxır. Onların bir-biri ilə qarşılıqlı əlaqədə həyata keçirilməsi və güclü dövlətin daha da güclənməsi azərbaycançılıq və multikulturalizmin inkişafı fonunda baş verməli idi. Həmin ümumi məqsədlərə çatmaq milli ideyanın reallaşmasını tələb edirdi.

Bununla Azərbaycanın xarici siyasət konsepsiyasının mühüm bir özəlliyi ön plana çıxmış olur. Əsas sual belə idi: milli maraqlara uyğun olaraq milli ideyanı hansı mexanizmlərlə daha səmərəli reallaşdırmaq mümkün ola bilər? Bu suala zamanında Heydər Əliyev dəqiq cavab tapmışdı və sonrakı mərhələdə İlham Əliyev onu dəyişən şəraitə tam uyğunlaşdırdı. Ancaq fəaliyyətin baza prinsipləri dəyişməz qaldı. Biz hansı məqamları nəzərdə tuturuq?

## Sülhsevərlik və ərazi bütövlüyü

Ərazi bütövlüyünün bərpası milli ideya kimi prinsipial əhəmiyyət kəsb edir. Ona nail olmağın iki üsulu mövcud idi: birincisi, beynəlxalq hüquqa və ədalətə dayanan danışıqlar, ikincisi, hərbi güc tətbiqi. Faktdır ki, Azərbaycan 1993-cü ildən ilk olaraq danışıqlar və diplomatiya üsuluna üstünlük vermişdir. Heydər Əliyev 1994-cü il və 1995-ci illərdə BMT-də çıxışları zamanı məsələnin bu tərəfinə çox ciddi vurğu etmişdir. Azərbaycan tərəfi hətta konkret təklif-modellər də təqim etmişdir. Bu xətt həmişə gözlənilmişdir.

Bir sıra beynəlxalq təşkilatlarda rəsmi Bakı fəaliyyəti zamanı, müəyyən dərəcədə ədalətli sənədlərin qəbul edilməsinə nail olmuşdur. Ayrıca, BMT 4 qətnamə qəbul etmişdir. Bütün bu prosesdə Azərbaycanın imtina etməyəcəyi bir şərti olmuşdur: ölkənin ərazi bütövlüyü bərpa olmalıdır!

Ancaq həm ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri, həm də Ermənistan bu humanitar, sülhsevər münasibətdən real olaraq imtina etmişlər. Rəsmi İrəvan hər fürsətdə yalnız Azərbaycanın bölünməsindən danışmışdır. Çünki XVIII əsrin sonlarından Qərb və Rusiya imperiyaları ermənilərə elə havadarlıq etmişlər ki, onlar Azərbaycan torpaqlarını işğal etməyi, bir növ "təbii normal hal" saymışlar. XX əsrin sonlarına qədər də müxtəlif bəhanələrlə Azərbaycandan torpaq qopartmışlar.

Belə şərtlər daxilində Azərbaycanın milli ideyanı gerçəkləşdirmək üçün bir yolu qalırdı – hərbi üsulla ərazi bütövlüyünü bərpa etmək! O halda xarici siyasətin sülhsevərlik və humanitarlığını saxlamaq ciddi mövqe tələb edirdi. Çünki faktlar göstərir ki, adətən dövlətlər belə şəraitlərdə çox aqressiv mövqeyə meyl edirlər. Azərbaycan isə hərbi qüdrətini göstərdi, ancaq sülhsevərlik və humanitarlıq xarici siyasətin başlıca xüsusiyyətlərindən biri kimi qaldı.

Burada Azərbaycan tarixi bir keçidi reallaşdırmağı bacardı. Ərazi bütövlüyü və suverenlik tam təmin edildikdən sonra inkişafın ancaq dinc, sülhpərvər və humanitar yolu seçildi. Bu o demək idi ki, ən böhranlı situasiyalarda belə Azərbaycan ancaq quruculuq, əməkdaşlıq və yardımlaşma vasitəsi ilə inkişaf etməyi özünün strateji məqsədi kimi qəbul etmişdir!

## Sülhsevərlik

Uzun müddət haqsızlıq görən və torpaqlarının bir qisminin işğal altında qalması üçün böyük dövlətlərin müxtəlif süni oyunlar qurmasının acısını yaşayan bir müstəqil ölkənin sülhsevər mövqeyindən heç zaman geri çəkilməməsi böyük hadisədir. Bundan başqa, ağır sınaqlardan sonra regional sabitlik və barış naminə sarsılmaz mövqe tutmaq möhkəm dövlət identikliyi tələb edir. Bütün təxribatlara baxmayaraq, Azərbaycan bunun öhdəsindən layiqincə gəldi. Yeni tarixi mərhələ üçün müəyyən edilmiş prioritet istiqamətlərin sırasında qonşu dövlətlərlə mehriban, sabit və qarşılıqlı əməkdaşlığa istiqamətlənmiş münasibətlər qurmaq müddəasının olması həmin səbəblərdən ciddi məsələdir.

Birinci prioritet istiqamət aşağıdakı kimi müəyyən edilmişdir: "Milli maraqlara və beynəlxalq hüquqa söykənən müstəqil və prinsipial xarici siyasətin davam etdirilməsi".

İkinci və üçüncü prioritet istiqamətlər: "Azərbaycan tərəfindən irəli sürülmüş 5 əsas prinsip əsasında Ermənistanla sülh müqaviləsinin imzalanması" və "Cənubi Qafqazda davamlı sülhün bərqərar olması və onun dayanıqlı inkişaf bölgəsinə çevrilməsi ilə bağlı səylərin davam etdirilməsi"

Yeddinci prioritet istiqamət: "Qonşu ölkələrlə ikitərəfli münasibətlərin möhkəmləndirilməsi".

Vurğulanan prioritet istiqamətlərdən aydın görünür ki, yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasət konsepsiyası milli maraqlara söykənən və beynəlxalq hüquqa əsaslanan müstəqil kursdur. Milli maraqlarla beynəlxalq hüququn bu kurs daxilində sintezində sülhyaratma ilk sırada dayanır. Buna üç prioritet istiqamət həsr edilmişdir. Həmin istiqamətlərin də üç əsas tərəfi vardır.

Birincisi, Ermənistanla sülh müqaviləsi beynəlxalq hüquq və BMT Nizamnaməsinə tam uyğunlaşdırılmış təkliflər çərçivəsində həyata keçməlidir. Yəni Azərbaycan sülhsevərliyi konkret siyasi və hüquqi kriteriyalarla məzmunlaşdırmışdır. Elə bir rəsmi sənəd imzalanmalıdır ki, orada ədalət, siyasət və hüquq ziddiyyətsiz şəkildə öz əksini tapsın. Deməli, Cənubi Qafqazda sülhün təməli və ya siyasi-hüquqi bazası möhkəm olmalıdır ki, son 300 ildə özünü göstərən geosiyasi dağıdıcılıq bir daha təkrarlanmasın.

Bunu biz "ədalətli və yaradıcı sülhsevərlik" adlandıra bilərik. Eyni zamanda, sülhün milli miqyasdan regional miqyasa uğurlu proyeksiyası baş verməlidir. Bu prosesin təməlində "sülhün binarlığı" dayanır. Həmin nümunənin regional miqyasa transformasiyası isə "dayanıqlı regional sülh nümunəsi" yaratmağa xidmət edir.

Bununla Azərbaycanın yeni tarixi mərhələdə sülhsevərliyinin siyasi-hüquqi modelini aşağıdakı kimi formula edə bilərik: "iki dövlət arasında sülhün yaradılmasından regional sabitlik və sülhün qarşılıqlı əməkdaşlıq müstəvisində təmininə sistemli keçid"! Bu dinamikanın başlıca funksiyası isə regionu əsrlərdir istismar edən geosiyasi konstruktivsizlik vəziyyətindən xilas edib əməkdaşlıq, sabitlik və təhlükəsizlik geosiyasətinə keçirməkdən ibarətdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Azərbaycan hökuməti 2023-cü ildə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) ölkədəki fəaliyyətinə son verilməsi ilə bağlı qərar qəbul etdi. Bu qərar qəfil və təsadüfi deyil, uzun illər ərzində formalaşmış və yığılıb qalmış narazılıqların məntiqi nəticəsi idi.**

Qərarla bağlı açıqlamada bildirilir ki, BQXK regionda neytral və humanitar mandatına zidd şəkildə fəaliyyət göstərib, obyektivlik prinsipindən yayınaraq siyasi və tərəfli mövqe nümayiş etdirib. Azərbaycanın suveren hüquqlarına hörmətsizlik kimi qiymətləndirilən bu fəaliyyətlər isə nəticə etibarilə ölkə daxilində quruma olan etimadı sarsıdıb.

Məsələn, Ukrayna hökuməti BQXK-nı humanitar missiyaları yerinə yetirməkdə ləngklik və ya tam imtinada ittiham etmiş, mülki şəxslərin təxliyəsində iştirakı təmin etmədiyini, müharibə əsirlərinə və mülki şəxslərə qarşı törədilən cinayətləri qeydə almaqdan yayınmaqla öz mandatını doğrultmadığını bildirmişdi. Bu kimi hallar göstərir ki, problem epizodik deyil, struktur xarakter daşıyır. Komitə zaman-zaman neytrallıq prinsipindən uzaqlaşaraq, siyasi vəziyyətə uyğun olaraq selektiv və qərəzli fəaliyyət göstərir.

# BQXK: şəfqət missiyasının astar üzü



Əsas narazılıqlardan biri 2020-ci illərin əvvəllərində Xankəndidə BQXK-nın Azərbaycanın icazəsi olmadan ofis açması ilə bağlıdır. Bu addım nəinki Bakı ilə razılaşdırılmamış, eyni zamanda, ofis beynəlxalq qurumun İrəvan nümayəndəliyinə tabe edilmişdi. O, faktiki olaraq Azərbaycanın dövlət orqanlarına tabe olmur, birbaşa Cenevrə və İrəvanla əlaqə saxlayırdı. Əldə olunan sənədlər və hesabatlarda Qarabağda həyata keçirilən fəaliyyətlərin Azərbaycanın hüdudlarında deyil, guya, ondan kənarda aparıldığı göstərilirdi. Bundan əlavə, BQXK-nin dərc etdiyi xəritələrdə Qarabağ Ermənistanla birləşdirilmiş şəkildə göstərilir, bu isə açıq şəkildə beynəlxalq hüququn pozulması idi.

Rəsmi məlumatlara görə, BQXK-nın bəzi əməkdaşları Azərbaycan Ordusunun Füzuli istiqamətində keçirdiyi hərbi əməliyyatları dayandırmaq məqsədilə Ermənistana casusluq edib. Ofis 2020-ci ildən 2023-cü ildəki antiterror əməliyyatınadək "kollektiv Qərb"in, faktiki olaraq, kəşfiyyat məntəqəsinə çevrilmişdi. Bu vəziyyət Azərbaycan qanunlarına və beynəlxalq hüquqa zidd idi. Hökumət dəfələrlə həmin ofisin hüquqi əsasını təşkil edən sənədin surətini tələb etsə də, komitə onu təqdim etməkdən boyun qaçırıb. Bu isə qurumun qərəzli və gizli fəaliyyət göstərməsi ilə bağlı Bakıda əsaslı şübhələr doğururdu.

*

BQXK-nın vəzifələrindən biri də münaqişə zamanı və ondan sonra itkin düşmüş şəxslərin taleyinin müəyyən olunması istiqamətində fəaliyyətidir. Amma qurumun bu sahədə ciddi fəaliyyəti olmayıb. Dörd minə yaxın azərbaycanlı mülki və hərbi şəxsin taleyinə aydınlıq gətirilməsində bu beynəlxalq qurum, demək olar ki, heç bir real addım atmayıb. Əksinə, Azərbaycana qarşı qanlı cinayətlərdə iştirak etmiş erməni separatçılarına hərtərəfli kömək göstərib.

Təşkilat fəaliyyəti zamanı humanitar missiya adı altında qeyri-qanuni fəaliyyətlərlə də məşğul olub. Buna misal olaraq 2023-cü ildə Azərbaycan Dövlət Sərhəd Xidməti əməkdaşlarının BQXK-ya məxsus təcili tibbi yardım maşınlarında qaçaqmalçılıq hallarının aşkar etməsini göstərmək olar. Xəstələrin təxliyəsi adı altında həyata keçirilən bu fəaliyyət Azərbaycan qanunlarını kobud şəkildə pozub. Bu hadisə ilə bağlı Azərbaycan hüquq-mühafizə orqanları cinayət işi açıb.

BQXK-nın Azərbaycanda fəaliyyətinin bağlanması ilə bağlı qərara reaksiyası Azərbaycan ictimaiyyətində və dövlət strukturlarında ciddi narazılıq doğurub. Təşkilat münaqişənin başa çatmadığını, hələ də Qarabağda "de-fakto nəzarət strukturları"nın mövcudluğunu iddia edərək fəaliyyətini davam etdirəcəyini və 2025-ci ildən sonra öz mövqeyini yenidən dəyərləndirəcəyini bildirmişdi. Bu yanaşma Azərbaycanın ərazi bütövlüyünün tanınması prinsipinə zidd olmaqla yanaşı, BQXK-nın, sanki, regionda qeyri-qanuni idarəetməni legitimləşdirməyə cəhdi kimi qiymətləndirildi. Nəticədə bu mövqe Azərbaycan üçün səbr kasasını daşıran son damla oldu. Rəsmi Bakı BQXK-nın fəaliyyətinə son qoydu.

BQXK-nın bu davranış qaydası təkcə Azərbaycana qarşı deyil. Təşkilat digər münaqişə zonalarında da şübhəli fəaliyyətinə görə bənzər tənqidlərə məruz qalıb.

*

Hadisələrin gedişatı onu göstərir ki, son otuz il ərzində Azərbaycanda bu təşkilatın fəaliyyəti getdikcə humanitar prinsip və məqsədlərdən uzaqlaşıb, daha çox siyasi təsir alətinə çevrilib. Xankəndidə ofisin açılması, əsir və girovlarla bağlı bəyanatlarda manipulyativ yanaşmalar, informasiya manipulyasiyasında və qərəzli kampaniyalarda iştirak, qaçaqmalçılıq iddiaları və casusluqla bağlı yayılan məlumatlar – bütün bunlar siyasi təzyiq mexanizminə çevrilib.



**Bununla bağlı politoloq Aydın Quliyev XQ-yə bildirdi ki,** Azərbaycanın BQXK-nın ölkədəki fəaliyyətinin bağlanması ilə bağlı verdiyi qərar göstərdi ki, heç bir beynəlxalq qurum toxunulmaz deyil və əgər prinsiplər pozularsa, cavab gecikməyəcək: "Bu qərar Azərbaycanın beynəlxalq təşkilatlarla münasibətlərində suverenlik və milli maraqlar prinsipini ön planda tutduğunu bir daha nümayiş etdirdi. BQXK ilə bağlı narazılıqlar yalnız konkret fəaliyyətlərə deyil, bütövlükdə qurumun uzunmüddətli yanaşmasına və regiondakı mövqeyinə bağlıdır.

BQXK-nın ölkədən çıxarılması sadəcə inzibati qərar deyil, həm də suveren hüquqların və milli təhlükəsizliyin qorunması baxımından strateji əhəmiyyət daşıyan addımdır. Həm də beynəlxalq təşkilatlara ünvanlanan ciddi mesajdır: neytrallıq və humanitar mandat yalnız simvolik ifadə yox, əməli davranış və fəaliyyətdə əks olunmalıdır. Azərbaycanın bu addımı bəşəri dəyərlərin arxasında gizlənərək ölkələrə təzyiq göstərmək cəhdlərinə qarşı hüquqi və siyasi suverenliyin bərpası kimi dəyərləndirilə bilər".

Beləliklə, Azərbaycan ərazi bütövlüyü və suverenliyini tam bərpa etdikdən sonra regionda BQXK-nın əvvəlki kimi aktiv fəaliyyət göstərməsi üçün əsas qalmadı. Antiterror tədbirlərinin başa çatması və sabitliyin bərpa olunması ilə yanaşı, təşkilatın fəaliyyətini zəruri edən şərait də ortadan qalxdı. Azərbaycanın qərarı həm hüquqi, həm də siyasi zərurətdən irəli gəlib. Yəni, Azərbaycan BQXK adlı bu tələdən qurtuldu. Bəli, Beynəlxalq Qızıl Xaç Komitəsinin ölkəmizdən qovulması ədalətin bərpası aktıdır. Bu, eyni zamanda, missiyasından sapmış digərlərinə bir dərsdir. Humanizmi ehtiva edən simvolların arxasında gizlənənlər vəzifəsinə və yerli qaydalara uyğun hərəkət etməlidirlər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan əzəmətinin Xankəndi zirvəsi

## *Tarixdən əzmin və iradənin növbəti təntənəsinə uzanan yol*

**Xankəndi İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə Görüşünə evsahibliyini gerçəkləşdirib. Bu, qədim Azərbaycan şəhərində keçirilmiş dünya miqyaslı ilk böyük tədbirdir. Bəli, Xankəndinin Türkiyə, İran, Pakistan, Qırğızıstan, Tacikistan və digər ölkələrin rəhbərlərini, onları müşayiət edən böyük nümayəndə heyətlərini qarşılaması adi hal sayıla bilməz. Qeyri-adilik fonunda diqqət çəkən bir zamanlar yuxu kimi görünən hadisənin gerçəkləşməsidir. Deməli, qürurlanmağa, fəxarət hissi keçirməyə dəyər. Qürur və fəxarət isə gözlərimiz önündə artıq tarixə çevrilmiş keçmişi canlandırır.**



Yaşlı həmkarlarımızdan biri ötən əsrin 80-ci illərinin sonuna doğru Şuşaya səfərini xatırlayaraq, şəhərə getmək üçün Bakıdan qatarla Xankəndiyə yollandıqlarını demişdi. Həmkarımız qatardan enəndə vağzaldakı erməni taksi sürücülərinin hamısının kənara çəkildiyini, sanki gələnləri görmürmüşlər kimi davrandığını xatırlamışdı. Nəhayət, Şuşadan maşın göndərildikdən sonra mənzil başına çatmaq mümkün olmuşdu.

Bir qayda olaraq, Xankəndidən Şuşaya taksilərlə gedilirmiş. Həmin vaxt taksi sürücüləri şəhərin digər erməni sakinləri kimi, hay millətçilərinin təsiri altında imişlər. Qondarma "Miatsum" hərəkatının vüsət almağa başladığı vaxtlarda azərbaycanlılara qarşı belə hərəkətlər çox olmuşdu. Sanki onlar öz şəhərlərinə yox, hansısa başqa respublikaya gedirlərmiş. Respublikadan söz düşmüşkən, Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra Stepanakert adlandırılmış Xankəndi "respublikanın", Qarabağ separatçılarının qurama dövlətinin paytaxtına çevrildiyi də məlumdur. Bu vəziyyətin 2023-cü ilin sentyabrınadək davam etdiyi də həmçinin.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibədə şanlı Zəfər qazanmış Azərbaycan işğal altındakı torpaqlarını azad etdi. Hərbi əməliyyatlar gedişində 300-dən çox yaşayış məntəqəsi yağı tapdağından qurtuldu. 2020-ci il noyabrın 8-də Şuşa qələbəsi yaşananda, istər-istəməz gözlər Xankəndiyə dikildi. Lakin Xankəndi zəfəri özünü daha üç il gözlətdi. Ancaq o anın yaşanacağına inam bir gün belə sarsılmadı.

Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə Görüşü təntənəsinin yaşandığı bu günlərdə yada Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Şuşada – Cıdır düzündəki qısa söhbət düşür. Dövlətimizin başçısı qardaş ölkə liderinə uzaqdan, obrazlı desək, Şuşanın ayaqlarına sarılmış kimi görünən Xankəndini göstərir, cənab Ərdoğan isə hotelin oradamı yerləşdiyini soruşur. Baməzə notlarla yadda qalmış söhbətə əmin nöqtəni Prezident Əliyev qoyur: "Orada da (hotel -red.) olacaq".

Ölkəmizin rəhbəri bütün sözlərini tutduğu kimi, Xankəndi sözünü də tutdu. Əlbəttə, Xankəndi üzərində tam hakimiyyətimiz bərpa olunmasaydı, 44 günlük müharibədəki Zəfər yarımçıq qalardı. Bunu dövlətimizin başçısı da müxtəlif çıxışlarında bildirib. Ancaq 2023-cü ilin sentyabrınadək bu şəhər Vətən müharibəsindən sonrakı dövrdə bəzən hərbi toqquşmalar məcrasına keçmiş siyasi, diplomatik və psixoloji mübarizəmizin hədəfinə çevrildi. Erməni separatçılarının oradan səsləndirdikləri bəyanatlar, eləcə də həmin bəyanatların Ermənistandakı və ölkədən xaricdəki əks-sədası xalqımızın əsəblərini tarıma çəkdi. Bir şəhərə bu qədər yaxın olasan, amma...

Bəli, Azərbaycanın tərkibində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradıldığı 1923-cü ildən ötən düz 100 il ərzində Xankəndinin, necə deyərlər, adı bizim, dadı ermənilərin oldu. Burada yaşayan ermənilər həmişə özlərini xüsusi imtiyazlı təbəqə kimi hiss etdilər. Müxtəlif illərdə vilayətdə azərbaycanlılara qarşı törədilmiş cinayətlərin, həyata keçirilmiş müxtəlif məkrli planların da mərkəzində məhz Xankəndi, o zamankı adı ilə desək, Stepanakert dayandı.

Əlbəttə, Azərbaycan dövləti Xankəndi ilə yanaşı, digər ərazilərimizi işğaldan azad etdiyi 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən əvvəl və sonra şəhərin erməni əhalisinə yaşam təminatı verdiyini bəyan etdi. Amma Ermənistan və havadarları Qarabağ avantürasını, belə demək mümkünsə, niskilə daşımaq qərarına gəldilər və bölgəni, o cümlədən, Xankəndini tərk etdilər. Əlbəttə, mövcud istiqamətdə müxtəlif məqamları vurğulamaq mümkündür. Amma buna ehtiyac duymuruq. Təkcə onu deyək ki, görünür, ermənilər yaşlı jurnalist həmkarımızın üzləşdiyi durumun azərbaycanlılar tərəfindən onlara qarşı təkrarlanacağından ehtiyatlandılar. Halbuki, 1988-ci ildə "Miatsum"la başlayan erməni avantürası olmasaydı, iki il əvvəlki durum da yaşanmazdı, neçə-neçə faciələr də.

Əlqərəz, indi ermənilər, eləcə də vaxtilə şəhərdə yaşamış haylar Xankəndinin dünya miqyaslı mötəbər tədbirə evsahibliyini görüb düşünməlidirlər. Ötən müddətdə düşmənçilik etməklə nəyə nail olduqlar, nə qazandılar? Olmazdımı ki, Xankəndidə doğulmuş və boya-başa çatmış bir erməni bu günlərdəki təntənəni görəydi? Heç şübhəsiz, işğal yaşanmasaydı, şəhər böyük toplantılara evsahibliyini gerçəkləşdirmək baxımından da ön sıralarda dayanacaqdı.

Sonda onu da bildirək ki, Ermənistan işğalda saxladığı bölgələrimizi xarabazara çevirdi, bir daşı belə daş üstə qoymadı, talanlar, qarətlər gerçəkləşdirdi. Elə Xankəndi də işğal illərində yeniliklər görmədi. Şəhərdəki tikililər, tam əksəriyyət etibarilə, keçmiş SSRİ dövründə Azərbaycan hakimiyyətinin, azərbaycanlıların mirasıdır. Lakin işğaldan azad olunmuş bütün bölgələrimizdə olduğu kimi, Xankəndidə də böyük quruculuq və abadlıq işləri gerçəkləşdirilməkdədir. Bu tədbirlər dövlətimizin, xalqımızın doğma torpağa və yurda sahiblənmək əzminin göstəricisidir. Tam əminliklə deyə bilərik ki, İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə Görüşünün də məhz bu qədim şəhərimizdə təşkili həmin sahiblənmək əzminin və mübarizliyin növbəti təntənəsidir. Təntənə isə ənənə üçün bünövrədir, başlanğıcdır. Dünyaya Azərbaycanın səsinin bəyan edildiyi mərkəzə çevrilmiş Xankəndinin günü-gündən inkişaf edəcəyinə, çiçəklənəcəyinə, bu qədim şəhərimizin qarşıdakı müddətdə də böyük toplantılara evsahibliyini gerçəkləşdirəcəyinə, həmişə hər bir azərbaycanlının, dostlarımızın qürur və fəxarət yeri olacağına əminik.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İƏT Azərbaycan üçün önəmli regional əməkdaşlıq platformasıdır

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, 1964-cü ildə İran, Pakistan və Türkiyə tərəfindən İnkişaf üçün Regional Əməkdaşlıq adı ilə 3 ölkə arasında iqtisadi, texniki və mədəni əməkdaşlığı möhkəmləndirmək məqsədilə yaradılan sözügedən qurum 1985-ci ildən etibarən İqtisadi Əməkdaşlıq Təşkilatı adlandırılıb. Qurumun təsis proqramında davamlı iqtisadi artıma nail olunması, üzv dövlətlərin iqtisadi inkişafının sürətləndirilməsi, ticarətin liberallaşdırılması, üzv dövlətlərin iqtisadiyyatının dünya iqtisadiyyatına tədricən inteqrasiyası, nəqliyyat və kommunikasiya sisteminin inkişaf etdirilməsi, maddi sərvətlərin səmərəli istifadəsi məsələləri qarşıya mühüm vəzifələr kimi qoyulub.




Azərbaycan İƏT-ə 1992-ci ildə üzv olub. Təşkilatın 9-cu və 12-ci zirvə toplantıları müvafiq olaraq 2006-cı və 2012-ci illərdə Bakıda reallaşıb, Bakı bəyannamələri qəbul edilib. İƏT-in ötən müddətdəki iclaslarında Mərkəzi Asiya və Cənubi Qafqazdan keçən nəqliyyat marşrutlarının mühüm önəm daşıdığı, bu xüsusda Azərbaycanın regional nəqliyyat və tranzit dəhlizlərinin inkişaf etdirilməsi üçün görülən əhəmiyyətli işlər barədə ətraflı məlumat verilib. Bununla yanaşı, sözügedən istiqamətlərdə əməkdaşlığın gücləndirilməsi məqsədilə Türkiyə, Qazaxıstan və Özbəkistan ilə birgə üçtərəfli platformalar təsis edilib. Azərbaycan, Türkiyə və Qazaxıstan arasında 2022-ci ilin iyun ayında Bakıda keçirilən görüşdə qəbul olunan Bakı Bəyannaməsində nəzərdə tutulan Transxəzər (Orta Dəhliz) Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı üzrə müvafiq qərarların icrası vəziyyəti yüksək dəyərləndirilib.

Göründüyü kimi, Azərbaycan İƏT-ə üzv olandan indiyədək bu təşkilatla əlaqələrinin möhkəmləndirilməsini diqqətdə saxlayıb. İyulun 4-də Xankəndi şəhərində İƏT-in 17-ci Zirvə görüşünün keçirilməsi də respublikamızın bu qurumla sıx əməkdaşlığının göstəricisidir. Prezident İlham Əliyev adıçəkilən təşkilatın 17-ci Zirvə görüşündəki çıxışında da sözügedən qurumla iqtisadi sahədə əməkdaşlığı dərinləşdirmək üçün müzakirə ediləcək məsələlərin xüsusi əhəmiyyət daşıdığını bildirərək deyib: "Azərbaycanda çox müsbət sərmayə iqlimi vardır. Son 20 il ərzində ölkə iqtisadiyyatına 350 milyard ABŞ dollarına yaxın sərmayə qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir. Bu gün Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir və müxtəlif qaz boru kəmərləri vasitəsilə 12 ölkəyə təbii qaz ixrac edir. Bu göstəriciyə görə, biz dünyada ön sıralardayıq. Şərq – Qərb və Şimal – Cənub nəqliyyat dəhlizləri Azərbaycan üzərindən keçir və İƏT-ə üzv ölkələrin əksəriyyəti bu dəhlizlərdən istifadə edir".

Yeri gəlmişkən, son 22 il ərzində regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən, dinamik və hərtərəfli inkişaf yolu keçən ölkəmizin iqtisadi qüdrəti və fəal xarici siyasəti beynəlxalq aləmə daha sıx inteqrasiyanı, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsini gerçəkləşdirib. Şübhəsiz ki, bu uğurları dövlətimizin başçısının inkişaf strategiyasına əsaslanan uzaqgörən siyasəti şərtləndirib.

Ölkəmiz tarixi baxımdan qısa müddət ərzində sıçrayışlı iqtisadi inkişafı reallaşdırıb, böyük transmilli layihələrin təşəbbüskarı və aparıcı iştirakçısı olub, 30 il düşmən əsarətində qalan Qarabağ və Şərqi Zəngəzuru azad edərək bu coğrafiyada genişmiqyaslı bərpa – quruculuq layihələrinin icrasına başlayıb. Azərbaycanın dünya birliyinə inteqrasiyasının gücləndirilməsi qarşılıqlı faydalı əməkdaşlığın inkişafı, beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin hazırlayıb.

Dövlətimizin başçısı İƏT-in 17-ci Zirvə görüşündəki nitqində bu məsələlərə də toxunaraq Ermənistanın Azərbaycan ərazilərinin, təxminən, 20 faizini 30 ilə yaxın işğal altında saxladığını, etnik təmizləmə həyata keçirdiyini, bir milyondan artıq soydaşımızı öz dədə-baba torpağından didərgin saldığını vurğulayıb, eyni zamanda, bu müddətdə xalqımızın və dövlətimizin heç vaxt işğalla barışmadığını da diqqətə çatdırıb. Nəhayət, 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ermənistanı döyüş meydanında darmadağın edərək 300-dən çox şəhər və kəndi azad etdiyini, Ermənistanın isə 10 noyabr 2020-ci il tarixində kapitulyasiya aktı imzalamağa məcbur olduğunu vurğulayıb. Prezident İlham Əliyev çıxışında hazırda Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri aparıldığını da diqqətə çatdırıb.

Azərbaycan İƏT-ə üzv ölkələrlə əməkdaşlığın inkişafını daim diqqətdə saxlayır. Prezident İlham Əliyevin bu məsələ ilə bağlı çıxışlarının birində deyir: "Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə münasibətlərimiz dostluq və qarşılıqlı hörmətə əsaslanır. Biz, həmçinin beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə səmərəli əməkdaşlıq edirik".

Xatırladaq ki, Azərbaycan ilə İƏT-ə üzv ölkələr arasında cari ilin ilk 5 ayında ticarət dövriyyəsi 3,5 milyard dollara (illik 10 faiz artım) çatıb.1995-ci ildən bəri üzv dövlətlərdən ölkəmizə 22 milyard dollardan çox investisiya qoyulub. Hazırda Azərbaycanın İƏT region ölkələri ilə xarici ticarət dövriyyəsinin həcmi 8 milyard dollardır ki, bu rəqəm cəmi ticarət dövriyyəsinin, təxminən, 17 faizi deməkdir.

***V.BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

İqtisadi Əməkdaşlıq Təşkilatının əsas məqsədi ortaq din və mentalitet birliyi olan üzv ölkələrin iqtisadi əməkdaşlığını artırmaqdır. Hazırda təşkilata 10 ölkə daxildir. Azərbaycanın təşkilata üzv ölkələrlə iqtisadi-ticari əlaqələri artan dinamika üzrə inkişaf edir. Belə ki, 2024-cü ilin göstəricilərinə görə, təkcə qardaş Türkiyə ilə iqtisadi ticarət həcmi 7,9 milyard dollardır.

Ticarət həcmi Azərbaycanın bu ölkələrlə olan toplam ticarət dövriyyəsinin 77 faizini təşkil edir. Digər ölkələrin də payı məhz qonşuluq prinsipi üzrə bölünür. Məsələn, İranla ötənilki ticarət dövriyyəmiz 647 milyon dollar olub ki, bu da İƏT üzvləri ilə ticarət dövriyyəmizin 8,9 faizinə bərabərdir.

Ötən il Qazaxıstanla illik ticarətimiz 470 milyon dollar və ya təşkilatdaxili toplam ticarətimizin 6 faizinə bərabər olub. Digər yaxın qonşumuz Türkmənistanla illik ticarət dövriyyəmiz isə 384 milyon dollar və ya ümumi dövriyyənin 4,9 faizinə bərabərdir.

Özbəkistanla Azərbaycan arasında 2024-cü il üçün ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 40 faiz artaraq 252 milyon dollara yüksəlib. 2024-cü ildə Pakistan ilə ticarət dövriyyəmiz 22 milyon dollar, Əfqanıstanla 800 min dollar, Tacikistan ilə 7 milyon dollar, Qırğızıstan ilə 4 milyon dollar olub.

Göründüyü kimi, təşkilata üzv bir çox ölkələrlə ticarət dövriyyəmiz mövcud potensialı əks etdirmir. Buna səbəb kimi qeyd olunan ölkələrdə logistika və nəqliyyat infrastrukturunun inkişaf etməməsi, enerji sahəsində investisiyaların qıtlığı və geosiyasi risklər ola bilər. Bu ölkələr çox nadir metallarla zəngindirlər. Əfqanıstan litium, nikel, kobalt, mərmər və nadir metallarla zəngindir ki, bu gün həmin metallardan yüksək texnoloji məhsulların istehsalında istifadə olunur.

# Milli Məclisin növbəti plenar iclası

**İyulun 4-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib. Parlamentin sədri iclasın gündəliyinə 22 məsələnin daxil olunduğunu deyib.**

Gündəliyin birinci məsələsi qərar layihəsi olub. Bildirilib ki, Prezidentin təqdimatına əsasən, Milli Məclis Konstitusiya Məhkəməsi hakimlərinin təyin edilməsi məsələsinə baxmalıdır.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məsələ barədə məlumat verib. O, Azərbaycan Prezidentinin Otari Qvaladzenin, Fərhad Tutayukun, Rauf Quliyevin və Rəşid Rzayevin Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təyin edilməsi məsələsinə baxılması üçün Milli Məclisə müraciət etdiyini deyib. Deputat namizədlərin ikisinin icra hakimiyyətinin, digər iki nəfərin isə məhkəmə hakimiyyətinin təmsilçiləri olduğunu söyləyib, onların fəaliyyəti və iş təcrübəsi barədə məlumatı təqdim edib. Sonra qərar layihəsi səsə qoyularaq qəbul edilib. Yeni təyin edilmiş hakimlər iclasda and içiblər.

Növbəti məsələni - "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov təqdim edib. Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub. İclasda çıxış edən maliyyə naziri Sahil Babayev 2024-cü ilin Azərbaycan üçün uğurlu olduğunu, həm makroiqtisadi sabitliyin, həm makrofiskalsabitliyin qorunduğunu, önəmli dövlət proqramlarının uğurla icra edildiyini vurğulayıb.

Növbəti iki məsələ Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və bir oxunuşda qəbul edilib. Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Ətraf Mühit, Su və Kənd Təsərrüfatı Nazirliyi arasında bitki mühafizəsi və karantini sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq olunması barədə qanun layihəsini təqdim edib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov isə "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Nəqliyyat Baş İdarəsi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın (əlavələrlə) I/10 qaydasına uyğun olaraq sertifikatların qarşılıqlı tanınmasına dair Anlaşma Memorandumu"nun təsdiqlənməsi haqqında qanun layihəsini təqdim edib. Hər iki qanun layihəsi səsə qoyularaq qəbul edilib.



Gündəliyin növbəti 13 məsələsi ikinci oxunuşda qanun layihələri olub. "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Konstitusiya qanununun layihəsini, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanunu layihəsini, həmçinin "Polis haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə, "Müdafiə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev, "Təhsil haqqında" və "Məktəbəqədər təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, Torpaq Məcəlləsində, Mülki Məcəllədə, Mənzil Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini Komitə sədri Tahir Rzayev, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa, Mülki Prosessual Məcəllədə, Cinayət-Prosessual Məcəllədə və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov, "Büdcə sistemi haqqında" və "Dövlət borcu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov təqdim ediblər. Komitə sədri Əli Hüseynli, həmçinin Mülki Məcəllədə, Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verib. Müzakirələrdən sonra qanun layihələri səsə qoyularaq qəbul edilib.

Gündəliyin son 5 məsələsi isə birinci oxunuşda qanun layihələri olub. İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Mülki Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, "Media haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsini (birinci oxunuş) təqdim edib.

İclasda diqqətə çatdırılıb ki, növbəti iki məsələ Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-biri ilə bağlıdır. Ona görə də layihələrin təqdimatları və müzakirəsi birlikdə aparılıb.

Gündəliyin 19-cu məsələsi olan "Xüsusi icra məmurları haqqında" qanun layihəsi (birinci oxunuş) ilə bağlı Komitə sədri Əli Hüseynli bildirib ki, sənəd icra sisteminin səmərəliliyinin artırılması məqsədilə hazırlanıb. Əli Hüseynli gündəliyin 20-ci məsələsi olan Mülki Prosessual Məcəllədə, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Rəqabət Məcəlləsində, "Sosial sığorta haqqında", "Polis haqqında", "Tibbi sığorta haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Siyasi partiyalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirib ki, sənəd hazırda Milli Məclisin müzakirəsinə təqdim edilmiş "Xüsusi icra məmurları haqqında" qanun layihəsinə uyğunlaşdırmaq məqsədilə hazırlanıb.

Gündəliyin 21-ci məsələsi - "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunlarda dəyişiklik edilməsi haqqında olub.

Gündəliyin sonuncu məsələsi olan Torpaq Məcəlləsində, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Mənzil Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Notariat haqqında", "İcra haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "İpoteka haqqında" qanunlarda dəyişiklik edilməsi barədə olub.

Qanun layihələri birinci oxunuşda qəbul edilib.

**Xuntaçıların məhkəməsi**

# Ermənistan hərbçiləri Kəlbəcərin dinc əhalisinə də divan tutublar



**(əvvəli 1-ci səhifədə)**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmə prosesində Azərbaycanın vaxtilə Ermənistanın işğalı altında olan ərazilərində əsir və girov götürülmüş, habelə Ermənistan hərbçilərinin açdığı atəş nəticəsində yaralanmış, işğal nəticəsində digər zərərlər görmüş şəxslər ifadə veriblər.

Zərərçəkmiş Quliyev Bəxtiyar Məhəmməd oğlu ifadəsində Kəlbəcər rayonunun işğalı ilə əlaqədar ailə üzvləri və digər mülki şəxslərlə birlikdə 1993-cü il martın 31-də rayondan "Tunel" adlandırılan ərazi vasitəsilə çıxarkən Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən atəşə tutulduqlarını bildirib. Nəticədə qardaşı İslam Quliyev öldürülüb.

Zərərçəkmiş Nəsibə Quliyeva ifadəsində Kəlbəcərin işğalı zamanı 13 yaşı olduğunu, bacı-qardaşları ilə birlikdə 1993-cü il martın 31-də rayondan yük avtomobili ilə çıxarkən "Tunel" adlanan ərazidə Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən ailəlikcə girov götürüldüldüklərini söyləyib. O hələ də bacısından və iki qardaşından (Aygün, Yaşar və Məzahir Quliyevlər) xəbər ala bilmədiklərini diqqətə çatdırıb.

Zərərçəkmiş Təhməz Şahverdiyev ifadəsində Kəlbəcərin Başlıbel kənd sakini olduğunu, rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı Ətdərəsi adlı yerdə girov götürüldüyünü bildirib. O, tikintidə fəhlə kimi işlədilib, mütəmadi olaraq işgəncələrə məruz qalıb.

Zərərçəkmiş Elbrus Əmirov isə Kəlbəcər rayonunun Ağdaban kənd sakinidir. O, ifadəsində bildirib ki, 1992-ci ilin aprel ayında Ermənistan silahlı qüvvələri müxtəlif çaplı silahlarla kəndə hücum edərək mülki sakinlərə divan tutub. 67 mülki sakini güllələyibər. Çoxlu yaralanan olub. 14 nəfəri isə yandırıblar. Yandırılanlar arasında onun babası Bəkir Qocayev və nənəsi Zeynəb Qocayeva da olub. Əhalinin mal-qarasını yığıb aparıblar. Sağ qalanları girov götürüblər.

Zərərçəkmiş Qoşqar Quliyev ifadəsində ondan bir qədər əvvəl ifadə vermiş N.Quliyevanın danışdıqlarını təsdiqləyib. O əvvəlcə Ağdərənin Heyvalı kəndinə, daha sonra Xankəndi şəhərinə, iyunun 1-də isə Şuşa həbsxanasına aparıldığını, girovluqda olarkən səhər saat 5-dən gecə saat 1-dək işlədildiklərini bildirib.

Zərərçəkmiş şəxs Fərman Quliyev Kəlbəcər rayonunun Günəşli kənd sakini olduğunu, rayonun işğalı zamanı 1993-cü il martın 31-də "Tunel" adlanan ərazidən keçib getmək istəyən zaman atəşə tutulduqlarını, daha sonra girov götürüldüklərini bildirib. Onları əvvəlcə Ağdərənin Heyvalı kəndinə apardıqlarını, burada yaralı qardaşının vəfat etdiyini, iynəsiz 8 dişinin çəkildiyini, mütəmadi olaraq döyüldüyünü bildirib: "Boynumu da kəsmək istəyirdilər, bıçağın yeri indi də qalır. Bir az kəsib sonra fikirlərindən daşındılar".

Zərərçəkmiş Taryel Quliyev Kəlbəcərin Günəşli kənd sakini olduğunu bildirib. O, ifadəsində "Tunel" faciəsi zamanı 14 yaşının olduğunu, Ermənistan silahlı qüvvələrinin yüzlərlə hərbçi ilə onlara hücum edərək atəşə tutduqlarını, yaxınlarının, yaralandığını, atası, bacısı və qardaşının girov götürüldüyünü, girovluqda saxlanıldığı 8 ay yarım müddətində özünə və digər azərbaycanlılara işgəncə verildiyini də söyləyib.

Zərərçəkmiş Yadigar Məmişov "Tunel" hadisələri zamanı anasının 4 güllə yarası aldığını deyib. Bildirib ki, 9 yaşlı qardaşı Taleh Məmişov da güllə yarası alıb, ondan indiyədək məlumat yoxdur. Y.Məmişov özü və digər yaxınları Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüb.

Hüquqi varis Əziz Göyüşov ifadəsində nənəsinin (atasının anası) Kəlbəcər işğal olunan zaman itkin düşdüyünü, indiyədək ondan xəbər tuta bilmədiklərini bildirib.

Zərərçəkmiş Anar Əliyev ifadəsində 2020-ci ildə 44 günlük müharibədə iştirak etdiyini, noyabrın 9-da Xocavənddə yaralandığını, səhəri gün əsir götürüldüyünü, döyüldüyünü, işgəncələrə məruz qaldığını bildirib.

Zərərçəkmiş Rabil Babayev sakini olduğu Xocavəndin Qaradağlı kəndinin Ermənistan hərbçiləri tərəfindən 1992-ci il fevral ayında mühasirəyə alındığını, fevralın 13-də kəndə hücum edildiyini bildirib. Kənd sakinlərindən cavanları bir, yaşlıları isə digər yük maşınına yığaraq Xankəndiyə aparıblar. Yolda 10 nəfəri maşından düşürərək qətlə yetiriblər. Daha sonra isə yük avtomobilində olanlar güllləbaran edilib: "60-dan çox adamdan 20 nəfərə yaxını sağ qalmışdı. Bizi Xankəndiyə apardılar. Orada qarda ağzı üstə saxladılar. 47 gün girovluqda qaldım, gündə azı 3 dəfə döyülürdük".

Zərərçəkmiş Nizami İsmayılov Kəlbəcərin Günəşli kənd sakini olduğunu, Ermənistan tərəfindən rayonun işğal edilməsi ilə əlaqədar 1993-cü ilin mart ayının sonlarına yaxın doğmaları ilə birlikdə yaşadıqları ərazini tərk etdiklərini bildirib. Lakin atası Qanboy İsmayılovdan indiyədək xəbər olmadığını bildirib.

Zərərçəkmiş şəxs Nurbala Əmirquliyev Birinci Qarabağ müharibəsində iştirak etdiyini, Ağdamda ağır yaralandığını, iki gün sonra yaralı vəziyyətdə əsir götürüldüyünü, daha sonra Xankəndiyə aparıldığını bildirib: "Məni yaralı vəziyyətdə türmə kimi bir yerdə bir sutka döydülər. Gördülər ölürəm, uşaq xəstəxanasına apardılar. Orada Stepanyan soyadlı hərbi həkim yaramın çürümüş hissələrini heç bir ağrıkəsici vurmadan kəsdi".

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmə prosesi iyulun 7-də davam etdiriləcək.

***XQ***

# Beşinci "Yüksəliş" müsabiqəsinin yarımfinal mərhələsi başlanıb

**İyulun 4-də beşinci "Yüksəliş" müsabiqəsinin yarımfinal mərhələsi başlanıb.**

Tədbirdə "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Prezidentin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, kənd təsərrüfatı naziri Məcnun Məmmədov, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev iştirak ediblər.

Prezidentin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib ki, "Yüksəliş" müsabiqəsi ölkəmizin gələcəyini formalaşdıracaq intellektual liderlərin aşkara çıxarılması və yetişdirilməsi baxımından strateji əhəmiyyətə malikdir. O qeyd edib ki, burada fərqlənərək ön sıralara yüksələnlər yaradıcılığı, analitik düşüncəsi, çevik qərarvermə bacarığı və komandada işləmək qabiliyyəti ilə seçilirlər.



Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva "Yüksəliş" müsabiqəsinin Azərbaycanın gələcəyinə xidmət edən liderlik məktəbi olduğunu deyib. Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev çıxışında "Yüksəliş" müsabiqəsinin yüksək intellektə və idarəçilik bacarığına malik perspektivli, xüsusilə gənc rəhbər kadrların seçilməsi və dəstəklənməsi, yeni nəsil idarəçilərin hazırlanması üçün unikal platforma olduğunu qeyd edib. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bu il Kənd Təsərrüfatı Nazirliyi ilə "Yüksəliş" İctimai Birliyi arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində nazirlik sistemində fəaliyyət göstərən əməkdaşlar üçün "Üfüq" Karyera İnkişaf Proqramının həyata keçirildiyini deyib.

"Yüksəliş" müsabiqəsinin builki konsepti Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda elan olunmuş "Konstitusiya və Suverenlik İli"nə həsr edilib. Eyni zamanda, builki konsept 44 günlük Vətən müharibəsində Zəfərimizin 5 illiyi və "Yüksəliş" müsabiqəsinin 5-ci mövsümü ilə birbaşa bağlıdır.

Müsabiqədə 329 namizəd idarəetmə bacarıqları üzrə keçirilən imtahanı müvəffəqiyyətlə tamamlayaraq yarımfinal mərhələsinə yüksəlib.

Üç gün davam edəcək yarımfinal mərhələsi çərçivəsində namizədlər 9 səriştə üzrə (strateji düşüncə, effektiv liderlik, qərarvermə, nəticəyönümlülük, işin effektivliyinin idarə edilməsi, adaptivlik, innovativ düşüncə, komanda işi və əməkdaşlıq, etika və dürüstlük) ekspertlər tərəfindən qiymətləndiriləcək.

Qeyd edək ki, yarımfinal mərhələsinə hazırlıq çərçivəsində qiymətləndirici ekspertlər üçün üçgünlük təlim proqramı təşkil olunub. Təlimlərə 100-ə yaxın ekspert cəlb edilib.

Qiymətləndirmə prosesi beynəlxalq təcrübəyə əsaslanan və obyektivliyi ilə seçilən "Qiymətləndirmə konfransı"(Assessment Conference) metodu ilə həyata keçirilir.

Yarımfinal mərhələsi iyulun 6-da başa çatacaq. Bu mərhələni uğurla tamamlayan iştirakçılar iyulun 18–20-də keçiriləcək finalda iştirak etmək hüququ qazanacaqlar. Beləliklə, beşinci "Yüksəliş" müsabiqəsi iyulun 20-də yekunlaşacaq.

***XQ***

Səfər təəssüratı

# Unudulmaz Özbəkistan görüşləri



**İctimai fəaliyyətimlə əlaqədar dünyanın bir çox ölkəsinə səfərlər etmişəm. Vəzifəm Türk dünyası ilə bağlıdır deyə, qardaş ölkələrdə daha çox olmuşam.**

Ötən ilin may ayında Özbəkistanın paytaxtı Daşkənd şəhərində Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin yardımı, rəhbəri olduğum Azərbaycan–Türkiyə Qadınlar Cəmiyyəti və Azərbaycan–Türkiyə Evinin təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış – Türk Dünyası Sammiti" keçirmişdik. Amma bütün bunlarla yanaşı, Özbəkistana indiki səfərim mənim üçün bir neçə baxımdan xüsusi dəyərə malikdir. Əvvəla, bu, millət vəkili kimi ilk xarici səfərim idi. Dəfələrlə ölkədən kənarda tədbirlərə qatılsam da, Birinci Özbəkistan–Azərbaycan Parlamentlərarası Forumda iştirak edən nümayəndə heyətinin tərkibində, rəsmi statusda ölkəni təmsil etmək ayrıca bir qürur hissidir.

Forumla bağlı təəssüratlarıma keçməzdən öncə qeyd edim ki, Azərbaycan–Özbəkistan qardaşlığı sovet dönəmində belə özünün yüksəliş dövrünü yaşayıb. Heydər Əliyev və Şərəf Rəşidov ikitərəfli əlaqələrin genişlənməsini təmin ediblər. Özbək dostlarımız etiraf edirlər ki, hətta o zaman qondarma "pampıq işi" ilə əlaqədar ağır günlərdə də Ulu öndərimiz Özbəkistanın təəssübünü çəkib. Onun orada baş verən proseslərə həssaslıqla yanaşması, Moskvada yüksək dövlət vəzifəsi tutmasına baxmayaraq, hazırlanan provokasiya və repressiyalar barəsində Şərəf Rəşidovu xəbərdar etməsi özbək xalqının unutmadığı tarixdir. Bu gün iki ölkənin prezidentləri arasındakı səmimi münasibətlər qardaş xalqların yeni tarixinin parlaq səhifələridir.

Biz həm də özbək qardaşlarımızla eyni ağrını bölüşmüşük. Ötən əsrin əvvəllərində bolşeviklərin dəstəyi ilə Daşnaksütun partiyasının hərbi qanadı tərəfindən Kokand vilayətində özbəklərə qarşı törədilən soyqırımı yaddaşlarda dərin iz salıb. Ümumilikdə həmin hadisələr zamanı 35 minə yaxın özbək öldürülüb. 30-cu illərdə kütləvi repressiyalar zamanı on minlərlə azərbaycanlı Özbəkistana sürgün edilib və orada sığınacaq tapıb. 1966-cı ilin aprelində dağıdıcı zəlzələdən sonra Daşkəndin bərpasında azərbaycanlılar da



Foruma gəldikdə isə deyim ki, tədbirin keçirildiyi Xivə şəhəri hər birimizin yaddaşında silinməz iz buraxdı. Bizim mənəvi ruh paytaxtımız olan Şuşa ilə qardaşlaşmış Xivə Mərkəzi Asiyanın ən bərəkətli, yaşıl Xarəzm vadisində yerləşir. 2500 ildən artıq yaşı olan Xivə klassik Şərq üslubunun bütün gözəlliklərini özündə saxlamaqla bərabər, həm də müasir şəhərdir. Forumun rəsmi hissəsindən kənar Azərbaycan nümayəndə heyətinin tarixi Xivə ilə tanışlığı ayrıca xoş təsir bağışladı. Bu məsələdə Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanın bizə göstərdiyi qayğı və diqqət xüsusi qeyd olunmalıdır. Məhz onun birbaşa iştirakı ilə 25 hektar ərazidə tikilmiş Arda Xivə kompleksi, "Nurullaboy" saray kompleksi ilə tanışlıq oldu.

Məlumat üçün onu da bildirim ki, Birinci Özbəkistan–Azərbaycan Parlamentlərarası Forumu Azərbaycan Milli Məclisinin hər hansı digər ölkənin qanunverici orqanı ilə keçirdiyi ilk forumdur. Bu fakt təkcə parlamentlərimiz arasında əməkdaşlığın yüksək səviyyədə olmasının göstəricisi deyil, həm də ölkələrimiz və xalqlarımız arasındakı qardaşlıq münasibətlərini əyani şəkildə nümayiş etdirir. Bu rəsmi müzakirələrdə də özünü göstərdi. Forum çərçivəsində keçirilən müzakirələrdə həm Azərbaycandan, həm də Özbəkistandan olan millət vəkilləri çıxışlarında bu haqda geniş danışdılar.

Forumun birinci panel sessiyası Milli mühafizəsində və iqlim dəyişikliyinə qarşı mübarizədə parlamentlərin rolu" mövzusuna həsr olundu. Forumun sonuncu – altıncı panel yığıncağında isə "Cəmiyyətin və dövlətin inkişafında qadınların və gənclərin səsi: parlament perspektivi" mövzusunda müzakirələr oldu. Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova bu müzakirənin aparıcısı idi.

Bundan başqa nümayəndə heyətlərinin qadın deputatları arasında ayrıca görüş keçirildi. Mənimlə yanaşı Fatma Yıldırım, Könül Nurullayeva və Günay Əfəndiyevanın iştirak etdiyi bu görüşdə Özbəkistan Ali Məclisi Senatının üzvləri ilə çox səmimi söhbətimiz oldu. Bu kimi görüşlərdə özbək və Azərbaycan türkcəsində danışır, bir birimizi gözəl anlayırdıq. Yeri gəlmişkən, həm Azərbaycan, həm də Özbəkistan parlament rəhbərlərinin xanım olmaları qədim türk dövlət gələnəyində belə qadınların yüksək mövqe tutduğunun çağımızdakı təsdiqidir. Bu fakt dünya üçün də türk düşüncəsi baxımdan bir örnək olmalıdır. Forumun rəsmi hissəsində və qeyri-rəsmi söhbətlərdə Azərbaycan parlamentinin spikeri Sahibə Qafarovanın və Özbəkistan qanunverici orqanının rəhbəri Tənzilə Narbayevanın dövlət xadimi kimi keyfiyyətləri bizdə qürur hissi yaratdı. Özbəkistanda Azərbaycanın xanım spikerinin yüksək diplomatik bacarığının, dövlət xadiminə xas davranışlarının və böyük intellektual bazaya söykənən natiqliyinin bir daha şa-



fədakarlıq göstəriblər. Onu da unutmuruq ki, Azərbaycan və özbək xalqları SSRİ-nin son dönəmində, ələlxüsus Mixail Qorbaçovun hakimiyyəti zamanı da müxtəlif sahələrdə ayrı-seçkiliyin ağrısını yaşayıblar. 1989-cu ilin iyununda baş vermiş Fərqanə hadisələri SSRİ rəhbərliyinin, ələlxüsus M.Qorbaçovun türk düşmənçiliyinin bariz nümunəsi idi. 20 Yanvar və qondarma Sumqayıt hadisələrində də eyni dəst-xətti görmək mümkündür. Qeyd edim ki, hazırda Özbəkistanda çoxsaylı erməni icmasının yaşamasına baxmayaraq, orada Ermənistan səfirliyi və Ermənistanda isə Özbəkistan səfirliyi fəaliyyət göstərmir.

Bizimlə bütün bu tale və milli kök ortaqlığı Özbəkistanda hər addımda hiss olunur. Fərəhli haldır ki, bu gün 100 minə yaxın soydaşımız Özbəkistan cəmiyyətinin sosial, ictimai, iqtisadi inkişafında fəal iştirak edir.

Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin moderatorluğu ilə "Strateji tərəfdaşlığın inkişafında parlamentlərin rolu: qanunvericilik təşəbbüsləri, yüksək səviyyədə əldə olunmuş razılaşmalar və onların həyata keçirilməsinə nəzarət" mövzusunda keçirildi. "İqtisadi tərəqqiyə parlament dəstəyi: biznes və investisiyalar üçün yeni imkanlar" mövzusunda keçirilən ikinci panel müzakirələrinə isə Milli Məclisin deputatı Ziyad Səmədzadə moderatorluq etdi. Deputat Bəxtiyar Əliyevin moderatorluğu ilə "Əqli kapital və rəqəmsal transformasiya: parlamentlərarası əməkdaşlıq üçün yeni imkanlar" mövzusunda üçüncü, parlamentin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlunun moderatorluğu ilə "Mədəniyyət, turizm və səhiyyə sahələrində parlamentlərarası əməkdaşlıq" mövzusunda dördüncü panel müzakirələr aparıldı. Beşinci yığıncaq "Yaşıl gələcək: ətraf mühitin

hidi oldum. Forumun işçi dili rus dili idi. Buna baxmayaraq, Sahibə xanım açılış nitqində hər tədbir iştirakçılarını Azərbaycan dilində salamladı, giriş çıxışını doğma dilimizdə etdi və yalnız bundan sonra işçi dilə keçdi. Bu çox qürurverici bir hadisə idi. Onun çıxışında dövlətlərarası münasibətlərlə bərabər xalqların yaxınlığını bir kökdən, türk kökündən gəlməyimizi vurğulaması da ayrıca bir mesaj idi.

Ümumiyyətlə, forumda olan çıxışların real təsdiqi isə Özbəkistan Prezidentinin ölkəmizə son səfərində bir daha özünü göstərdi. Bu görüşlər Böyük Türk birliyinə gedən yolun qızıl təməl daşlarıdır və Azərbaycan bu birliyi yaradıb gücləndirən əsas tərəflərdən biridir.

***Tənzilə RÜSTƏMXANLI,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan–Türkiyə Qadınlar Cəmiyyətinin sədri***

# Azad Xankəndinin milli ideallar mərkəzi

## Qarabağ Universitetindən reportaj




**Qarabağ işğaldan azad ediləndən, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunandan sonra – 28 noyabr 2023-cü ildə Prezident İlham Əliyev Qarabağ Universitetinin yaradılması ilə bağlı sərəncam imzalayıb. Bu, təkcə həmin bölgədən olan keçmiş məcburi köçkünlərə deyil, bütün xalqımıza sonsuz sevinc və qürur bəxş edib.**

Sərəncama uyğun olaraq, ali təhsil ocağının qısa, bir ildən də az müddətdə fəaliyyətə başlaması isə həm yeni dövrün tələblərinə uyğun yüksəkixtisaslı milli kadrların hazırlanmasında, həm də Qarabağın sürətli inkişafında böyük töhfəyə çevrildi. Ötən il ilk tələbələrinə qucaq açan yeni ali təhsil ocağı şanlı zəfərlərimizin simvollarından biri kimi tanınır.

Artıq ilk tədris ili yekunlaşır, imtahan sessiyası başa çatmaq üzrədir. Bəs, yola salınan tədris ili müəllim kollektivi, tələbələr üçün hansı təəssüratlarla yadda qalacaq?

Suallarımıza cavab tapmaq üçün Xankəndi şəhərinin gözəl məkanlarından birində yerləşən universitetin əsas binasına üz tutduq. Xoş ovqatla qarşılandığımız tədris korpusunda isə imtahan ab-havası hökm sürürdü. Universitetin binasını gəzdikcə, müasir, yaraşıqlı auditoriyalara, kitabxanaya, laboratoriya otaqlarına baş çəkdikcə qısa vaxtda yaradılmış gözəl şəraitə heyrətlənməyə bilmədik.

Nəhayət, mühəndislik fakültəsinin müəllimləri ilə həmsöhbət olmaq imkanı əldə etdik. Əslən Cəbrayıldan olan Ürfət Nuriyev bildirdi ki, Xankəndiyə gəlməzdən əvvəl 26 il yarım Türkiyənin İzmir şəhərindəki Ege Universitetində kompüter riyaziyyatı fənnindən dərs deyib, fəlsəfə doktorudur. 2023-cü doğma Xankəndimizdə ali təhsil ocağının yaradılması ilə bağlı sərəncamdan xəbər tutan kimi qərar verib ki, mütləq bura gəlməlidir.

– Çünki Qarabağda yeni tarix yazılır, – deyə o izah etdi. – Bu işdə əlimdən gələni etmək, öz biliklərimi gənc nəslimizə öyrətmək, tarixi yazanların sırasında olmaq mənim üçün şərəfdir. Tələbələrim hamısı elmə, təhsilə həvəsli, ən əsası isə vətənpərvərdirlər.

Kompüter mühəndisliyi ixtisası üzrə proqramlaşdırma müəllimi Elçin Quliyev isə uzun illər arzuladığı Xankəndidə yaşamağın, burada çalışmağın qeyri-adi hisslər olduğunu dedi:

– Böyük xoşbəxtlikdir ki, bu gün gənclərimiz Azərbaycanın müxtəlif guşələrindən Xankəndiyə toplaşıb və modern tipli ali təhsil ocağında müasir tədris metodları və texnologiyaları ilə təhsil alırlar.

Qarabağ Universitetində işləmək üçün ilk müraciət edənlərdən biri olan və buraya böyük sevgi hissi ilə gələn Rəsmiyyə Məmmədova da söhbətə qoşuldu. Bildirdi ki, bu sevgisinin kökündə dayanan müqəddəs Qarabağa qovuşmaq duyğusudur:

– Bu yerlərdə düşmən tapdağından azad edilməsi üçün minlərlə oğullarımızın qanı tökülüb, torpaq qanla qarışaraq daha da müqəddəsləşib, bu gün bütün bacarığımı sərf edirəm ki, tələbələrini tam bilikləndirim.

İnformasiya-kommunikasiya texnologiyaları fənni üzrə imtahandan çıxıb gələn Nigar müəllim də sınağın şəffaf və uğurlu keçdiyini dedi.

Mühəndislik fakültəsinin müəllimləri ilə sağollaşıb, humanitar və sosial elmlər fakültəsinə yollandıq, hüquqşünaslıq fənnindən dərs deyən Nuranə Məmmədova bildirdi ki, Qarabağ Universitetini seçməyinin bir neçə səbəbi var:

– Atam Birinci Qarabağ müharibəsi veteranıdır, mən onun bu doğma yurdumuz haqqındakı sevgi dolu hekayələri ilə böyümüşəm. İkincisi, Qarabağ Universitetinin yaradılması mənim tədris etmək, biliklərimi öyrətmək arzumu reallaşdırmaq üçün yeni bir imkandır. Üçüncüsü, buranın təbiəti ilə bağlıdır – Qarabağda insanın ruhu dincəlir, hüzur tapır. Nəhayət, perspektiv baxımından da atdığım addım həm çalışdığım təhsil ocağı üçün, həm də şəxsi inkişafım baxımından böyük üfüqlər vəd edir. Ötən ilk tədris ilində yanılmadığımı gördüm.

Digər müəllimlərin də fikirlərini öyrəndik, sıra gəldi tələbələrə. Keçən il qəbul imtahanlarından 654 bal toplayaraq təhsilini Xankəndidə davam etdirmək arzusunu dilə gətirən, mətbuatda "Qarabağ Universitetinin ilk tələbəsi" kimi təqdim olunan Əli Rüstəmzadədən öyrəndik ki, 1-ci semestri zərbəçi kimi başa vurub, indi nəticəsini təkrarlamağa yaxındır. O dedi:

– Ötən müddətdə müşahidə etdiklərimə görə deyə bilərəm ki, seçimimdən qətiyyən peşman deyiləm. Burada tədrisin keyfiyyətinin artırılması üçün bütün imkanlar



səfərbər edilib, dərsdənkənar vaxtlarımızı səmərəli keçirməyimizə hər cür şərait yaradılıb. Mən də bu imkanlardan yararlanıb yaxşı oxumağı özümə borc bilirəm. Biz gənclərə Qarabağda, Xankəndidə ali təhsil almaq imkanı yaratdığı üçün möhtərəm Prezidentimiz İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

Əlidən ayrılıb daha bir neçə tələbəyə yaxınlaşdıq. Onlar da oxuduqları universitet, yaşadıqları şəhər haqqında ürəklə danışdılar. Onur Hüseynli, Nurlan Xəlilov, Lalə Məmmədova bildirdilər ki, Qarabağ Universitetinin tələbəsi olmaq özü bir fərqlilikdir, gözəllikdir. Onu da dedilər ki, burada verilən təhsil dünyanın aparıcı təhsil sistemlərinə uyğundur və gələcəkdə yeni bir nümunə kimi dünyaya səs salacaq. Möhtərəm Prezidentimiz Qarabağın dirçəlməsinə, inkişafına xüsusi diqqət göstərir, Qarabağ zonasının inkişafında isə Qarabağ Universitetinin də rolu böyük olacaq...

Gənclərin də dediyi kimi, Qarabağ zonasının sürətli inkişafında əhəmiyyətli rola malik Qarabağ Universitetində qonaq olmaq, bu təhsil ocağının pedoqoji kollektivinin, oxumağa, dövlətimizin gələcəyi naminə savadlı kadrlar kimi yetişməyə can atan tələbələrinin bir qisminin fikirlərini dinləmək çox xoş oldu. Hamı ilə bir daha görüşmək, buraya yenidən gəlmək, universitetin inkişafına, yeniliklərinə şahidlik etmək və haqqında yenə ürəklə, fəxrlə yazmaq ümidi ilə sağollaşdıq. Axı, azad Qarabağımızın özü kimi universiteti də bizim hamımızın, bütün Azərbaycanın qürur yeridir...

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

# Avropa ABŞ-dan Ukraynaya silah ala biləcəkmi?

**(əvvəli 1-ci səhifədə)**

"Politico" qeyd edir ki, məsələnin həssas məqamlarından biri ABŞ-ın öz müttəfiqlərinə qoyduğu texnoloji məhdudiyyətlərlə bağlıdır. Xatırladaq ki, Bayden administrasiyası dövründə Böyük Britaniyanın "Storm Shadow" raketlərinin Ukraynaya göndərilməsi ABŞ komponentlərinin mövcudluğu səbəbilə məhdudlaşdırılmışdı. Ukraynalı rəsmilərin sözlərinə görə, aparılan danışıqların bir hissəsi məhz bu cür texniki icazələrin əldə olunmasına yönələcək.

Lakin hələlik ABŞ tərəfinin bu tələblərə necə reaksiya verəcəyi bəlli deyil. "Politico" yazır ki, Ukrayna prezidenti Volodimir Zelenski ilə ABŞ-ın hazırkı prezidenti Donald Tramp arasında keçirilən görüşdə Kiyevə daha çox müdafiə silahlarının göndərilməsi ideyası müsbət qarşılanıb. Görüşə yaxın mənbələrdən biri bunu "həqiqətən pozitiv" görüş kimi xarakterizə edib, Trampın "anlayışlı və mərhəmətli" mövqe sərgilədiyini bildirib.

Senatın Silahlı Qüvvələr Komitəsinin sədri Rodjer Uiker isə qeyd edib ki, Ukrayna tərəfi artıq ABŞ-dan birbaşa maliyyə yardımı deyil, Avropa fondları hesabına ABŞ silahlarının alınmasına icazə verilməsini istəyir. "Prezident Zelenskinin son istəyi daha çox pul deyil, Avropa vəsaitləri ilə ABŞ silah və sursatlarının alınmasıdır," – deyə senator vurğulayıb.

Xatırladaq ki, bu həftənin əvvəlində ABŞ Müdafiə Nazirliyi Ukraynaya müəyyən silah növlərinin göndərilməsini gözlənilmədən dayandırıb. BILD nəşri yazır ki, Ukraynada olan ABŞ raketlərinin ehtiyatı yay aylarının sonuna qədər kifayət edəcək, daha sonra isə vəziyyət kritik həddə çata bilər.

"Wall Street Journal" isə xəbər verir ki, xüsusilə "Patriot" raketlərinin göndərilməsinin dayandırılması Ukrayna üçün olduqca uğursuz dövrdə baş verib və Rusiyanın hava hücumlarına qarşı müdafiəni zəiflədə bilər.

Bütün bunlar fonunda ABŞ və Ukrayna tərəfi prezidentlər Tramp və Zelenski arasında birbaşa telefon danışığının təşkilini həyata keçirir.

Ekspertlər hesab edirlər ki, Ukraynanın bu cür dolayı marşrutla silah tədarükünə yönəlməsi bir neçə strateji məqsədə xidmət edir. Birincisi, bu, ABŞ-dakı daxili siyasi çətinlikləri nəzərə alaraq, təchizat prosesində çeviklik yaradır. İkincisi, bu yanaşma Avropa dövlətlərini Ukraynanın müdafiəsində daha aktiv iştirakçıya çevirir və NATO-nun ümumi müdafiə yükünün paylaşılmasını təşviq edir.



Eyni zamanda, ABŞ silahlarının texnoloji ixracına qoyulan məhdudiyyətlər bu planın gerçəkləşməsində əsas əngəllərdən biri kimi qalır. Əgər Vaşinqton bu məhdudiyyətlərə istisnalar tətbiq etməyə razılaşarsa, Ukraynanın silah ehtiyaclarının mühüm hissəsi Avropa kanalları vasitəsilə qarşılanmış olacaq.

Ukraynanın yeni silah strategiyası — Avropa vəsaiti ilə ABŞ silahlarının alınması — Vaşinqtonun mövqeyindən asılı olan, lakin geniş regional nəticələrə səbəb ola biləcək cəsarətli diplomatik manevrdir. Bu prosesin gedişi NATO daxilində həm maliyyə yükünün bölüşdürülməsi, həm də texnoloji ixrac siyasətinin liberallaşması ilə bağlı ciddi müzakirələrə yol aça bilər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 2024-cü il dekabrın 31-nə başa çatan il üzrə mənfəət, zərər və sair məcmu gəlir haqqında konsolidə edilmiş hesabatı

*(min Azərbaycan manatı ilə)*

| | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| **GƏLİR** | | |
| Enerji satışı | 1,429,625 | 1,685,264 |
| Elektrik şəbəkəsinə qoşulma haqları | 1,231 | 3,024 |
| Digər satışlar | 37,471 | 3,741 |
| **Cəmi gəlir** | **1,468,327** | **1,692,029** |
| ƏMƏLİYYAT **XƏRCLƏRİ** | | |
| Yanacaq | (685,805) | (809,242) |
| Köhnəlmə və amortizasiya | (292,832) | (278,518) |
| İşçi xərcləri | (126,223) | (104,810) |
| Təmir və texniki xidmət | (66,854) | (120,131) |
| Mənfəət vergisindən başqa digər vergilər | (26,303) | (26,902) |
| Xammal və materiallar | (15,462) | (21,414) |
| Alınmış elektrik enerjisi | (36,414) | (15,751) |
| Ticarət və digər debitor borcların dəyərsizləşməsi ehtiyatında dəyişiklik | 8,653 | (798) |
| Digər xərclər | (35,435) | (69,700) |
| **Cəmi əməliyyat xərcləri** | **(1,276,675)** | **(1,447,266)** |
| ***Əməliyyat mənfəəti*** | **191,652** | **244,763** |
| Maliyyə xərci, xalis | (21,854) | (24,590) |
| Xarici valyuta mübadiləsindən gəlir | 130,198 | 160,351 |
| Xarici valyuta mübadiləsindən zərər | (67,686) | (144,521) |
| Əmlak, tikili, avadanlıq və onların alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmənin bərpası | 29 | 441 |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | **232,339** | **236,444** |
| Mənfəət vergisi xərci | (58,505) | (61,332) |
| ***İl üzrə xalis mənfəət*** | **173,834** | **175,112** |
| İl üzrə sair məcmu gəlir **və mənfəət vergisi çıxılmaqla** | | |
| Xarici valyuta ilə əməliyyatların çevrilməsindən yaranan məzənnə fərqləri | (377) | (6,448) |
| İL ÜZRƏ CƏMİ **MƏCMU** GƏLİR | **173,457** | **168,664** |

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Əmlak, tikili və avadanlıqlar | 4,855,475 | 3,955,338 |
| Əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar | 96,799 | 435,671 |
| Təxirə salınmış vergi aktivləri | 15,002 | 18,488 |
| Digər uzunmüddətli aktivlər | 76,475 | 86,148 |
| **Cəmi uzunmüddətli aktivlər** | **5,043,751** | **4,495,645** |
| *Qısamüddətli aktivlər* | | |
| Mal-material ehtiyatları | 48,536 | 50,327 |
| Əvəzləşdirilə bilən ƏDV | 620,452 | 480,691 |
| Ticarət və digər kreditor borcları | 41,147 | 133,179 |
| Avans ödənişləri | 34,088 | 34,443 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 124,278 | 119,587 |
| **Cəmi qısamüddətli aktivlər** | **868,501** | **818,227** |
| **CƏMİ AKTİVLƏR** | **5,912,252** | **5,313,872** |
| | | 3,955,338 |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| *Kapital* | | |
| Nizamnamə kapitalı | 1,760,495 | 1,760,495 |
| Əlavə ödənilmiş kapital | 3,156,391 | 3,020,828 |
| Yığılmış zərər | (1,820,557) | (1,994,391) |
| Məzənnə fərqləri üzrə ehtiyat | (4,764) | (4,387) |
| **CƏMİ KAPİTAL** | **3,091,565** | **2,782,545** |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Kreditlər və borc vəsaitləri, uzunmüddətli hissə | 784,708 | 894,268 |
| Dövlət subsidiyaları | 103,948 | 103,788 |
| Təxirə salınmış vergi öhdəliyi | 254,292 | 221,420 |
| Ticarət və digər kreditor borcları | 336,073 | 277,858 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **1,479,021** | **1,497,334** |
| *Qısamüddətli öhdəliklər* | | |
| Kreditlər və borc vəsaitləri, qısamüddətli hissə | 463,502 | 371,748 |
| Ticarət və digər kreditor borcları | 440,769 | 337,045 |
| Müştərilərdən alınmış avanslar | 1,625 | 3,218 |
| Cari mənfəət vergisi öhdəliyi | 90,392 | 92,196 |
| Ödənilməli mənfəət vergisindən başqa vergilər | 345,378 | 229,786 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **1,341,666** | **1,033,993** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **2,820,687** | **2,531,327** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **5,912,252** | **5,313,872** |

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Məzənnə fərqləri üzrə ehtiyat | Yığılmış zərər | Cəmi |
|---|---|---|---|---|---|
| **2023-cü il yanvarın 1-nə qalıq** | 1,760,495 | 2,711,696 | 2,061 | (2,164,739) | 2,309,513 |
| İl üzrə cəmi məcmu gəlir | - | - | (6,448) | 175,112 | 168,664 |
| Dövlət Ehtiyat Fonduna köçürülən məbləğ | - | (1) | - | - | (1) |
| Məzənnə fərqi üzrə ehtiyat | - | - | - | (4,764) | (4,764) |
| Səhmdar yatırımları | - | 309,133 | - | - | 309,133 |
| **2023-cü il dekabrın 31-nə qalıq** | 1,760,495 | 3,020,828 | (4,387) | (1,994,391) | 2,782,545 |
| İl üzrə cəmi məcmu gəlir | - | - | (377) | 173,834 | 173,457 |
| Səhmdar yatırımları | - | 135,563 | - | - | 135,563 |
| **2024-c**ü **il dekabrın 31-nə qalıq** | 1,760,495 | 3,156,391 | (4,764) | (1,820,557) | 3,091,565 |

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

| | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ ÜZRƏ **PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| İl üzrə mənfəət | 173,834 | 175,112 |
| *Düzəlişlər:* | | |
| Mənfəət vergisi xərci | 58,505 | 61,332 |
| Köhnəlmə və amortizasiya | 292,832 | 278,518 |
| Əmlak, tikili, avadanlıq və onların alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmə zərərinin bərpası | (29) | (766) |
| Mal-material ehtiyatları üzrə dəyərsizləşmə zərəri | 266 | 5,895 |
| Digər gəlirlər (torpaq, tikili və avadanlığın silinməsi üzrə gəlir) | (83) | (198) |
| Ticarət və digər debitor borcları üzrə dəyərsizləşmə zərəri | (8,653) | 798 |
| Qabaqcadan ödənişlər üzrə dəyərsizləşmə zərərinin geri qaytarılması | (223) | (325) |
| Xarici valyuta mübadiləsindən gəlir | (130,198) | (160,351) |
| Xarici valyuta mübadiləsindən zərər | 67,686 | 144,521 |
| Elektrik şəbəkəsinə qoşulma haqqı və digər satışlar | (1,231) | (152) |
| Maliyyə xərcləri, xalis | 21,854 | 24,590 |
| **Dövriyyə kapitalında hərəkətlərdən əvvəl pul daxilolmaları** | **474,560** | **529,299** |
| *Dövriyyə kapitalında hərəkətlər:* | | |
| Mal-materiallarda dəyişiklik | 29,578 | (9,048) |
| Əvəzləşdirilə bilən ƏDV-də dəyişiklik | (109,691) | (147,929) |
| Ticarət və digər debitor borclarında dəyişiklik | 102,068 | (9,133) |
| Avans ödənişlərində dəyişiklik | 357 | (16,246) |
| Ticarət və digər kreditor borclarında dəyişiklik | (15,995) | 22,911 |
| Müştərilərdən alınmış avanslarda dəyişiklik | (1,516) | 3,073 |
| Mənfəət vergisindən başqa digər vergi öhdəliklərində dəyişiklik | 141,049 | 184,024 |
| **Əməliyyat fəaliyyətlərindən əldə olunan pul vəsaitləri** | **620,410** | **553,878** |
| Ödənilmiş mənfəət vergisi | (21,798) | (8,736) |
| Ödənilmiş faiz | (11,418) | (5,408) |
| Əməliyyatlar **fəaliyyətlərindən** əldə olunan xalis pul vəsaitləri | **587,194** | **539,734** |
| İNVESTİSİYA FƏALİYYƏTLƏRİ ÜZRƏ **PUL VƏSAİTLƏRİNİN** HƏRƏKƏTİ: | | |
| Əmlak, tikili və avadanlığın alınması | (301,916) | (270,672) |
| Tikinti işləri üçün verilmiş avanslar | (493,934) | (791,464) |
| İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri | **(795,850)** | **(1,062,136)** |
| **MALİYYƏ FƏALİYYƏTLƏRİ** ÜZRƏ **PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Səhmdar yatırımlarının əldə edilməsi | 111,817 | 191,599 |
| Dövlət subsidiyalarının əldə edilməsi | 2,503 | 10,301 |
| Borc vəsaitləri üzrə pul daxilolmaları | 100,012 | 191,053 |
| **Maliyyə fəaliyyətlərindən əldə olunan xalis pul vəsaitləri** | **214,332** | **402,953** |
| **NAĞD PUL VƏ PUL** VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ **XALİS ARTIM / (AZALMA)** | **5,676** | **(119,450)** |
| İLİN ƏVVƏLİNƏ **NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **119,587** | **250,000** |
| Xarici valyutada saxlanılan pul vəsaitlərinin və onların ekvivalentlərinin qalıqlarına valyuta məzənnəsindəki dəyişikliklərin təsiri | (985) | (10,963) |
| İLİN **SONUNA NAĞD PUL** VƏ **PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **124,278** | **119,587** |

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 135 (30829) 5 iyul 2025-ci il, şənbə

Müqəddəs məkanlarımız

# Gəncə "İmamzadə"si – inanc, iman və ehtiram abidəsi

## Təbiətin və zamanın zərbələri onu Yer üzündən silə bilməyib

**Yaqin, çoxları bilmir: Gəncədəki İmamzadə dini kompleksi keçmiş ittifaqda yeganə dini məbəd olub ki, onun ziyarətinə hökumət rəsmi icazə verib. Halbuki oxşar məbədlər, ziyarətgahlar SSRİ-də, eləcə də Azərbaycanın özündə az olmayıb.**



İmamzadə dini kompleksindən söhbət açmağımız təsadüfi deyil. Məsələ bundadır ki, hər gün minlərlə dini etiqad sahibi bu ziyarətgaha üz tutur, ibadət edir, keçmişi xatırlayır, şəhidlərimizin ruhuna dualar oxuyur. Dini bayramlarda bura daha çox adam gəlir. Aşura günündə isə, üstəlik, xeyli adam soydaşlarımızın şəfa tapması üçün könüllü donor olur. Bu gün yenidən Məhərrəm ayının 10-cu günü olan Aşuradır.

Gəncəbasarda bu günə İslam tarixinə "Kərbəla müsibəti" adı ilə düşmüş faciə ilə bağlı "Qətl günü" də deyirlər. Bu, hicri təqvimi ilə 61-ci il (680-ci il) ilin həmin günündə Məhəmməd (s) Peyğəmbərin nəvəsi Hüseyn ibn Əli və onun tərəfdarlarının xəlifə I Yezid tərəfindən öldürülməsindən qaynaqlanır.

İslamşünaslar bildirirlər ki, İmam Hüseyn xəlifəliyi I Yeziddən öz nəslinə qaytarmaq istəyib. Hakimiyyəti əlində saxlamaq istəyən Yezid isə 4 min 500 nəfərlik qoşunla İraqın Kufə şəhərində, Kərbəla çölündə İmam Hüseyni 72 nəfər tərəfdarı və ailə üzvləri ilə birlikdə qətlə yetirdib.

Aşura günü Gəncədə minlərlə insan İmamzadə kompleksinə toplaşır. Ziyarətgahın ətrafında ehsan çadırları qurulur. Şəhərin müxtəlif yaşayış massivlərindən ziyarətçilərin "İmamzadə"yə daşınması üçün pulsuz nəqliyyat vasitələri təşkil edilir.

13 əsrdir ki, Gəncə bu müsibətə yas tutur, qatilləri lənətləyir. "İmamzadə" Gəncə, ölkəmizdə və İslam aləmində yaxşı tanınan bir ünvandır.

İmam Hüseyn qətliamından sonra da Peyğəmbər nəsli Ərəbistanda, İraqda, İranda və Azərbaycanda təqib olunub. 5-ci imam Məhəmməd Bağırın övladı şahzadə İbrahim isə Gəncədə qətlə yetirilib. Xalq onun məzarını ziyarətgaha çevirib. Aşura günlərində isə bu cinayətlərə etirazını bildirib.



"İmamzadə" türbəsinin VIII əsrdə inşa edildiyi ehtimal edilir. Abidə 1139-cu il zəlzələsində dağılıb. XIII əsrdə monqol hücumları və 1235-ci ildə daha bir güclü zəlzələ bu yerdən təsirsiz ötüşməyib. Nəticədə şəhərdə XII və XIII əsrə aid heç bir abidə qalmayıb.

Bu fəlakətlərdən sonra Azərbaycanda böyük canlanma baş verib. XIII - XIV əsrlərdə memarlıq-inşaat işləri yenidən inkişaf edib. Həmin dövrdə Bərdə, Naxçıvan, Təbriz və digər şəhərlərdə türbələr və digər memarlıq abidələri inşa edilib. Elə



indiki "İmamzadə" də o zamanlar inşa edilib. 1336-cı ildə Səmərqənddə ucaldılan "Şahi Zində" türbəsi ilə "İmamzadə" memarlıq xüsusiyyətləri, inşaat texnikası, gümbəzi, üzərindəki yazı və bəzəkləri ilə bir-birinə çox oxşayır. Buna görə "İmamzadə" türbəsinin də həmin dövrdə inşa edilməsi söylənilir. Sonrakı dövrlərdə türbədə dəfələrlə yenidənqurma işləri aparılıb, kompleks genişləndirilib.

"İmamzadə" tarixi memarlıq kompleksidir, Azərbaycan tarixinin ayrılmaz bir incisidir. Bu abidə müxtəlif vaxtlarda xeyriyyəçilərin, gəncəlilərin dediyi kimi, "yaxşı kişi"lərin hesabına yaşayıb, qorunub saxlanıb, dəfələrlə təmir-bərpa işləri aparılıb. Amma qədim şəhərdə hamı bu fikirdədir ki, ona ən böyük həyatı Azərbaycan Prezidenti İlham Əliyev verib. İndi bu kompleksə heyranlıqla baxmamaq mümkün deyil. Tarixiliyi qorunmaqla, tamamilə yeni bir görkəm verilməsi bu yerləri cənnətə döndərib.

Gəncə, "İmamzadə"si, Nizami Gəncəvisi, Cavad Xanı, Karvansarası, qədim çinarları ilə Gəncədir. İndiki nəsillər bunu unutmur. Gəncənin tarixi keçmişinə həssas yanaşanları qədirbilənliyi ilə yaşadırlar.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə şəhəri**

## İDMAN

### 2 boksçumuz yarımfinalda



**Daha iki boksçumuz Qazaxıstanın paytaxtı Astanada keçirilən Dünya Kubokunda yarımfinala yüksəlib. Belə ki, yığmanın üzvlərindən Məhəmmədəli Qasımzadə (60 kq) Yohan Aquera (Dominikan Respublikası) ilə qarşılaşıb. Boksçumuz rəqibini 5:0 hesabı ilə məğlub edib. O, yarımfinalda braziliyalı Luis Qabriel du Nasimento ilə döyüşəcək.**

Məhəmməd Abdullayev (+90 kq) isə Taeunq Yudan (Cənubi Koreya) güclü olub. Dünya çempionatının mükafatçısı da 5:0 hesabı ilə qələbə qazanıb. O, növbəti görüşündə qazaxıstanlı Albek Oralbayla üz-üzə gələcək.

Daha öncə Sübhan Mamedov (50 kq) da adını yarımfinala yazdırıb. Təmsilçimiz bu mərhələdə qazaxıstanlı Sanjar Taşkenbayı sınağa çəkəcək.

Qeyd edək ki, yarımfinala yüksəlməklə bürünc medalı təmin edən Azərbaycan boksçuları bu gün final uğrunda görüşə çıxacaqlar.

### "Açıq Bakı çempionatı"

**Bakı Şəhər Gənclər və İdman İdarəsi ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) təşkilatçılığı ilə avarçəkmə üzrə Açıq Bakı çempionatı keçiriləcək.**




AKAF-dan mətbuata verilən məlumata görə, yeniyetmə və gənc idmançıların iştirakı ilə təşkil olunacaq yarışda Bakı və Mingəçevirdən, ümumilikdə 100-ə yaxın avarçəkən iştirak edəcək.

Reqlamentə əsasən, Açıq Bakı çempionatında idmançılar akademik avarçəkmə və 1 nəfərlik kanoe qayığında 500 metr məsafə üzrə mübarizə aparacaqlar. Avarçəkənlər 500 metr məsafədə həm 1 nəfərlik, həm də 2 nəfərlik kanoe qayığında da çempionluq uğrunda yarışacaqlar. Qeyd edək ki, Bakı çempionatı iyulun 11-də təşkil olunacaq.

### Messi "İnter Mayami"də qalacaqmı?



**Məşhur argentinalı idman jurnalisti Leo Paradiso "İnter Mayami" ilə müqavilə müddəti başa çatan Lionel Messinin gələcəyi haqqında danışıb.**

Jurnalist ulduz futbolçunun hazırkı klubu ilə yeni müqavilə imzalamağa daha yaxın olduğunu dilə gətirib: "Leo başa düşür ki, Dünya çempionatına yaxşı formada qatılmaq istəyirsə, karyerasının bu mərhələsində fiziki durumuna və oyun praktikasına diqqət ayırmalıdır. O, bunu "İnter Mayami"də edə bilər. Leo dünya çempionatında oynamaq istəyir və turnirdən əvvəlki aylarda zədələnməməyə və ya həddən artıq yüklənməməyə çalışacaq. Düşünürəm ki, o, başqa kluba keçməkdənsə, "İnter Mayami" ilə müqavilə müddətini uzatmağa daha yaxındır".

Qeyd edək ki, bundan əvvəl mətbuat Messinin Səudiyyə Ərəbistanının "Əl-Hilal" klubundan olduqca sərfəli təklif aldığını yazıb.

***M.HACIXANLI***
***XQ***

# BDU-nun 70 məzunu təhsilini xaricdə davam etdirəcək

**Bakı Dövlət Universitetinin (BDU) beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin builki məzunları böyük uğura imza atıblar. Belə ki, bu il fakültəni bitirən 600 məzundan 70-dən çoxu dünyanın ən nüfuzlu universitetlərinin magistratura pilləsinə qəbul olub.**



Fakültə məzunları Böyük Britaniya, Almaniya, Niderland, ABŞ, Kanada, İtaliya, Fransa, Macarıstan və digər ölkələrin tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanıblar. Onların qəbul olunduqları ali məktəblər sırasında Kembric Universiteti, London İqtisadiyyat Məktəbi, Paris Politoloji Elmlər İnstitutu, Amsterdam Universiteti, Lund Universiteti, Berlin Humboldt Universiteti, Bolonya Universiteti, MakGill Universiteti, Toronto Universiteti, Leyden Universiteti, Berkli Kaliforniya Universiteti və digər nüfuzlu universitetlər yer alır.

Xarici ali məktəblərə qəbul olunan tələbələrə universitet rəhbərliyi və fakültə tərəfindən məsvərətçi, akademik və təşkilati dəstək göstərilir. Gənc mütəxəssislər gələcəkdə Azərbaycan elminin, iqtisadiyyatının və diplomatiyasının beynəlxalq inteqrasiyasında mühüm rol oynayacaqlar.

***XQ***

# Musiqinin "İpək yolu" yenidən Şəkidən keçir

**Dünən Azərbaycanın qədim sənət və mədəniyyət mərkəzlərindən olan Şəkidə növbəti musiqi bayramına – Şəki "İpək yolu" XIV Beynəlxalq Musiqi Festivalına start verilib.**

Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşan və üç gün davam edəcək musiqi festivalında Azərbaycan, Türkiyə və Çinin tanınmış musiqi kollektivləri, istedadlı musiqiçilər iştirak edirlər.

Festivalın proqramına uyğun olaraq, iyulun 4-də Şəki şəhərindəki "Yuxarı Karvansaray" mehmanxana kompleksində musiqisevərlərə ilk konsert proqramı təqdim olunub. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəstəyi ilə gerçəkləşən konsertdə Azərbaycanda yaşayan azsaylı xalqların xor, mahnı və rəqs kollektivləri rəngarəng proqramla çıxış ediblər. Müxtəlif etnik qrupların - talış, avar, ləzgi, molokan, tat icmalarının folklor qruplarının çıxışı tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Konsertin sonunda folklor qruplarının rəhbərlərinə festivalın xatirə hədiyyələri təqdim olunub.



Festivalın proqramına uyğun olaraq, dünən axşam "Marxal" kompleksinin Yay Teatrında Şəki "İpək yolu" XIV Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi keçirilib.

***XQ***

## Hava

### Abşeronda yağmursuz, bölgələrdə arabir yağış...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər və axşam yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var.**

Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 18-21, gündüz 25-28 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan aşağı - 757 millimetr civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında dağlıq ərazilərdən başlayaraq arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman gözlənilir. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-21, gündüz 28-32, dağlarda gecə 5-10, gündüz 12-17 dərəcə isti olacağı bildirilir.

***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2869
SİFARİŞ 1258
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00